EVDƏ QAL, SAĞLAM QAL!

**D İ Q Q Ə T !**

**SƏS QƏZETİNDƏN NÖVBƏTİ YENİLİK!**

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.
**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 146 (6110) **26 avqust** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Mehriban Əliyeva - dünya qadınlarına örnək: zəriflik, əzmkarlıq, kübarlıq və vətənpərvərlik mücəssəməsi



Tarixlər boyu hər bir ölkənin, xalqın özünəməxsus qadın obrazı formalaşıb və bu aksiomdur ki, Azərbaycan qadını məfhumunda mövcud olan mükəmməl ana, kübar və alicənab, həmçinin mübariz xanım amili bənzərsizdir. Hətta deyərdim ki, Azərbaycan qadını bütün dövrlərdə yazdığı öz möhtəşəmlik salnaməsi ilə dəyəri ölçülməyən cavahirat və müqəddəs mücəssəmədir...

Bax 3

# Prezident İlham Əliyev Rusiyanın Müdafiə naziri Sergey Şoyqunu qəbul edib



Bax 2

## Zakir Həsənov Rusiyanın Müdafiə naziri Sergey Şoyqu ilə görüşüb

Bax 5

*Avqustun 25-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu ilə görüşüb. Müdafiə Nazirliyinin...*



## Müəllimin seyfindən qanunsuz silah-sursat çıxdı

Bax 14



Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən odlu silah-sursatın aşkar edilməsi istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 1 il öncə vəfat etmiş, rayonun Boyat kəndindəki...

## İstanbulda terror törətmək istəyən İŞİD üzvü ələ keçirilib

İstanbulun məşhur Taksim meydanında terror aktı törətməyi planlaşdıran İŞİD üzvü ələ keçirilib. AZƏRTAC xəbər verir ki, terrorçu İstanbul Polis İdarəsinin terrorizmlə mübarizə şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində saxlanılıb. Onun terror aktı törətmək məqsədilə Türkiyənin Qaziantep...



Bax 14

## Yazır, danışır və ilk dəfə göstərir "SƏS" qəzeti!




*Azərbaycanın müstəqil mətbuatında özünəməxsus yeri və rolu olan "SƏS" qəzeti ölkədə daha bir ilkə imza atıb. SİA xəbər verir ki, artıq qəzetin oxucuları bir sıra informasiyaları videogörüntü vasitəsi ilə də izləyəcəklər. Belə ki, videoxəbərləri izləmək üçün android sistemli telefonlara və smartfonlara QR Code Reader skine proqramını yükləmək...*

Bax 6

## "Sədaqət, mərhəmət, insanlara qayğı Mehriban xanım Əliyevanın həyat amalıdır"



Bax 7

## "Ötən ildən bəri Azərbaycanda 1 milyon 800 min ağac əkilib"



Bax 6

## "Virtual terroristlər"in...




Bax 14

# Prezident İlham Əliyev Rusiyanın Müdafiə naziri Sergey Şoyqunu qəbul edib





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev bildirib ki, Azərbaycan ənənəvi olaraq Ordu Oyunlarında iştirak edir və ənənəvi olaraq "Dəniz Kuboku" yarışlarına ev sahibliyi edir:***

-Hörmətli cənab nazir, sizi yenidən Azərbaycanda görməyimə şadam. Mən sizinlə əvvəlki görüşümüzü xatırlayıram. Təqribən bir il bundan əvvəl siz bizim ölkəmizə gəlmişdiniz. O vaxt Bakıda MDB Müdafiə Nazirləri Şurasının iclası keçirilirdi. Bu gün Bakıda Ordu Oyunlarının bir hissəsi olan "Dəniz Kuboku" yarışı açılır. Bildiyiniz kimi, Azərbaycan ənənəvi olaraq Ordu Oyunlarında iştirak edir və ənənəvi olaraq "Dəniz Kuboku" yarışlarına ev sahibliyi edir. Düşünürəm ki, bu yarışlar bundan sonra da həmin yarışlarda iştirak edən bütün ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Ordu Oyunlarının təşəbbüskarı Rusiyadır və əsas yarışlar da Rusiya ərazisində keçirilir. Bizim tankçılar tank biatlonunda iştirak edirlər. Bu, görüşmək və hərbi sahədə əməkdaşlığımızın perspektivi ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparmaq üçün yaxşı imkandır. Bu məsələlər bizim dövlətlərarası münasibətlərimizin çox geniş gündəliyinin tərkib hissəsidir.

Lap yaxın günlərdə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin ilə telefon söhbətimiz olub. Söhbət zamanı biz regional təhlükəsizliklə, regional problemlərlə bağlı məsələləri müzakirə etdik. Sabah Azərbaycanın Xarici İşlər nazirinin Rusiya Federasiyasına rəsmi səfəri başlanır. Əminəm ki, xarici siyasət idarələrinin rəhbərləri arasında aparılacaq müzakirələr faydalı olacaq. Onlar münasibətlərimizdə yaranmış dinamikanı, habelə əlaqələrimizin inkişaf perspektivlərini müzakirə edəcəklər. Bir sözlə, dialoq gedir və şadam ki, siz yenə bizə gəlmisiniz. Azərbaycanda vaxtınızın xoş keçməsini arzu edirəm.

Rusiyanın Müdafiə naziri Sergey Şoyqu:

-Sağ olun, hörmətli cənab Prezident. Mənim üçün Azərbaycana səfər həmişə fikir mübadiləsi aparmaq və regional təhlükəsizlik məsələlərini, həmçinin bizim hərbi və hərbi-texniki əməkdaşlığımızla bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsətdir. Burada prezidentlərə məruzə etməli, müzakirə olunmalı məsələlər var. Bütün dünyanı bürümüş pandemiya təəssüf ki, bizim əməkdaşlıq planlarımıza da təsir göstərir. Lakin mən əminəm ki, bu gün mənim həmkarım, Azərbaycanın Müdafiə naziri ilə pandemiya ucbatından gerçəkləşdirə bilmədiyimiz məsələlərin əvəzini necə çıxmağı və bu gün mövcud olan qrafikə və rejimə necə daxil olmağı müzakirə edəcəyik.

Dünən Azərbaycan heyəti start götürdü. Biz onu müşahidə edirdik. Heyət heç də pis start götürmədi. Mən tank biatlonunu nəzərdə tuturam. Azərbaycan komandası qalan yarışlarda da kifayət qədər yaxşı çıxış edir. Mən bu komandaya uğurlar arzu edirəm. Əlbəttə, bu tədbirlər və keçirilən sərgi dünyada geniş işıqlandırılır. Onu da qeyd etməmək olmaz ki, bizim bu sərgidə göstərdiklərimiz bu gün üçün ən müasir silahlardır. Bu gün biz mənim həmkarımla bunu da müzakirə edəcəyik. Ümidvaram ki, əldən çıxmış fürsətləri orada bərpa etmək imkanı olacaq. Digər tərəfdən bizi sevindirməyə bilməz ki, Azərbaycan və onun komandası ənənəvi olaraq Xəzərdə keçirilən yarışlara ev sahibliyi edir. Bu yarışlar həmişə yüksək səviyyədə keçirilir. Ona görə ki, burada ənənəvi qonaqpərvərlik və bu yarışların təşkili, əlbəttə, ən yüksək səviyyədədir. Əvvəllər bu yarışlar on ölkədə keçirilirdi, lakin təəssüf ki, pandemiya səbəbindən ölkələrin sayı beşə enib. Xoşbəxtlikdən, Azərbaycan bu beşlikdə qalıb. Sağ olun ki, bizimlə görüşməyə vaxt və imkan tapmısınız.

# Çin portalı Azərbaycan multikulturalizmindən yazıb

***Çin Xalq Respublikasının nüfuzlu "The Caspian Times" xəbər portalında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov ilə müsahibə dərc edilib.***

Mərkəzin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müsahibədə Azərbaycanın multikulturalizm modelinin üstünlüklərindən, mədəniyyətlərarası və dinlərarası dialoqda Prezident İlham Əliyevin yeni çağırışlarından, bu siyasətin regional və qlobal təhlükəsizliyə verdiyi töhfələrdən geniş bəhs olunub. Bildirilir ki, multikulturalizm Azərbaycanda özünün ən yüksək zirvəsinə çataraq dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir və uğurlu siyasi modeldir. Azərbaycanda müxtəlif mədəniyyətə sahib 30-dan çox azsaylı xalq tarixi keçmişdən bu günədək sülh şəraitində birgə yaşayır. Eyni zamanda, bütün dinlər cəmiyyətdə sərbəst şəkildə təmsil olunurlar. İndiyədək Azərbaycanda nə milli, nə də dini zəmində heç bir qarşıdurma və fikir ayrılığı yaşanmayıbdır. Əksinə, ən çətin zamanlarda bütün dinlərin nümayəndələri tərəfindən həmrəylik nümayiş etdirilib. Azərbaycan dünyəvi respublikadır. Azərbaycan Konstitusiyasına əsasən, din dövlətdən ayrıdır, təhsil sistemi isə dünyəvi xarakter daşıyır. Dini inanclar tamamilə sərbəstdir. Ölkədə onlarca məscid, kilsə və sinaqoq fəaliyyət göstərir.

Həmçinin diqqətə çatdırılır ki, multikulturalizm siyasəti ölkənin daxili vəziyyətindən




başqa, onun beynəlxalq imicinə də müsbət təsir göstərir və Azərbaycanın hüquqi dövlət olmasına bariz sübutdur. Bu gün artıq Azərbaycan dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınır və bu model beynəlxalq miqyasda öyrənilir. Eyni zamanda, Azərbaycan dünyadan mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzi kimi də tanınır. Göründüyü kimi, multikulturalizm siyasətinin təsiri çox böyük və həyati əhəmiyyətlidir.

Müsahibədə, eyni zamanda, vurğulanır ki, Azərbaycanın bütün ali təhsil məktəblərində bakalavriat və magistratura pillələrində multikulturalizm ayrıca fənn kimi tədris olunur. Müxtəlif etnosa, mədəniyyətə və dinə məxsus uşaqların eyni təhsil imkanlarına malik olması, onların eyni sinifdə təhsil almaları, hətta azsaylı xalqların öz dillərində də təhsil imkanlarının onlara verilməsi məsələsi kifayət qədər əhəmiyyətlidir. Azərbaycanda bu vəziyyət Konstitusiya və "Təhsil haqqında" Qanunla tənzimlənir, həm də praktikada uğurla tətbiq olunur. Bu məsələ hazırda demək olar ki, əksər dövlətlərdə müzakirə mövzusudur. Azsaylı xalqların dilində dərsliklərin olması, peşəkar pedaqoq bazasının formalaşdırılması vacib amillərdəndir. Əgər gələcəkdə tolerant və multikultural bir nəslə sahib olmaq istəyiriksə, mütləq təhsildə belə hallara həssas yanaşılmalıdır.

# Mehriban Əliyeva - dünya qadınlarına örnək: zəriflik, əzmkarlıq, kübarlıq və vətənpərvərlik mücəssəməsi

***Tarixlər boyu hər bir ölkənin, xalqın özünəməxsus qadın obrazı formalaşıb və bu aksiomdur ki, Azərbaycan qadını məfhumunda mövcud olan mükəmməl ana, kübar və alicənab, həmçinin mübariz xanım amili bənzərsizdir. Hətta deyərdim ki, Azərbaycan qadını bütün dövrlərdə yazdığı öz möhtəşəmlik salnaməsi ilə dəyəri ölçülməyən cavahirat və müqəddəs mücəssəmədir.***

Belə ki, bütün tarixlərimizdə bizim örnək kimi qəbul etdiyimiz qadınlarımız olub və indi də vardır. Məhz bu baxımdan, çağdaş zamanımızda ölkəmizin birinci xanımı, Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, xanım Mehriban Əliyeva özünün həm ictimai-siyasi, həm humanitar fəaliyyəti, həm də elmi yaradıcılığı ilə dünya qadınlarına bir nümunə etalonudur. O da əbəs deyil ki, Mehriban xanım müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi, inkişafı naminə kifayət qədər geniş fəaliyyət göstərir, bu işlərinin həyata keçirilməsi istiqamətində əzm, qətiyyət göstərir və müasir dünyanın qadın siyasətində novatorluq tendensiyalarını nümayiş etdirir.







## Onun Azərbaycan qadınının ailədəki rolu və ailəyə münasibəti, əsl milli-dəyərlər kontekstini əks etdirən mükəmməl fikirlərində təsdiqini tapır

Mehriban xanımı şəxsiyyət kimi, xarakterizə edərkən daha bir mühüm məqamı da nəzərdən qaçırmaq olmaz ki, onun fəaliyyətində ənənəviliklə müasirlik, tarixi köklərə bağlılıqla dünyəvilik əsas prinsiplərdəndir. Bu mənada, onun Azərbaycan qadınının ailədəki rolu və ailəyə münasibəti, əsl milli-dəyərlər kontekstini əks etdirən fikirlərində təsdiqini tapır. "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm".

Eyni zamanda, Mehriban xanım Azərbaycan qadınını ailədə sülhün, razılığın və məhəbbətin təminatçısı hesab edir: "Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır və dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər".



Bəli, bu ifadələr çox sadə görünə bilər, amma eyni zamanda, çox böyük və dərin mənaları ehtiva etməkdədir. Həmin kəlamları daha dərindən incələyərsək, növbəti əsrarəngiz amilləri görmüş olarıq.

***

Mehriban Əliyevanın həyata keçirdiyi layihələrdə maarifçi, xeyriyyəçi, kreativ ideyaları ilə yanaşı, mədəni, dini, milli-mənəvi dəyər və ənənələrə sədaqət müşahidə olunur.

***

Onun gördüyü işlərin harmonik məcrasında Azərbaycan xanımının yorulmaz əməyi, güclü iradəsi dayanır və Mehriban xanım şərəfli, xeyirxah missiyanı layiqincə yerinə yetirir. Beləliklə, Azərbaycan qadınının bütün ali keyfiyyətlərini özünün təkrarsız şəxsiyyətində birləşdirən Mehriban Əliyevanın cəmiyyətdə yaratdığı müsbət aura insanları mənəvi saflığa, nəcibliyə, xeyirxahlığa səsləyir. Bir məsələni də qeyd etmək istərdim ki, bu gün bizim bir çox xanımlarımız, gənc qızlarımız onun fəaliyyətindən ruhlanaraq ictimai həyatda aktiv iştirak etməyə başlayıblar.



## Azərbaycan xalqı onu sevir və dəyərləndirir!

Daha bir məqama toxunmaq istərdim. Belə ki, Mehriban xanımın müsahibələrinin birində birinci xanım olmağın məsuliyyəti haqqında çox önəmli bir nüansa toxunur. O, bu hissi belə izah edir ki, "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür..."

Mehriban Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar və çoxşaxəli fəaliyyətinin təməlində məhz ona verilən dəyər, eyni zamanda, millətə layiqli xidmət faktoru dayanır. Bu gün onun xalq sevgisini qazanması bu dəyərlərlə ölçülməkdədir.

Əgər nəzərə alarsaq ki, müasir dünyanın öz çətinlikləri, müəyyən tələbləri, enişləri və yoxuşları var, bu zaman onun öz işlərinin öhdəsindən layiqincə gəlməsini həm də qadın qəhrəmanlığı olaraq qiymətləndirə bilərik. Çünki qloballaşma şəraitinin tələblərindən biri də, hər bir millət, dövlət özünün varlığını qoruyub saxlamaq və digərlərinə tanıtdırmaq üçün müxtəlif mədəni - kütləvi, ictimai, sosial layihələr keçirirlər. Mehriban Əliyeva istər birinci vitse-prezident kimi, istər Heydər Əliyev Fondunun prezidenti kimi, istərsə də birinci xanım olaraq, hətta Azərbaycanın müharibə vəziyyətində olmasına baxmayaraq, öz tarixini, mədəniyyətini, adət və ənənələrini dünya ictimaiyyətinə çatdırır. Əlbəttə, bu proses həddsiz səbr və əzmkar iradə tələb edir. Mehriban xanımın Azərbaycanın şifahi xalq ədəbiyyatının, milli-mədəni və musiqi irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi və dünyada təbliği, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərin, yorulmadan, ancaq davamlı aparılan səylərin bu biz müsbət nəticələrini görürük.

Daha bir reallığı unutmamalıyıq ki, Mehriban xanım İSESCO və UNESCO-nun xoşməramlı səfiri kimi də müstəqil Azərbaycanın nailiyyətlərini, ölkəmizdə hökm sürən tolerantlığı təbliğ edir, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun bərqərar olması üçün bütün səylərini göstərir. Bütün bu ağırlıqları, çətinlikləri zərif qadın çiynində saxlamaq isə hər qadına, hər xanıma müyəssər olmur!

Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı edilən genosidin dünyaya yayılmasında və təbliğ olunmasında Mehriban xanım Əliyevanın rolu böyükdür. "Xocalıya Ədalət" kampaniyası çərçivəsində Azərbaycan həqiqətlərinin dünya dövlətləri tərəfindən tanıdılmasında aparılan işlər xüsusi əhəmiyyət daşıyır.

*Ardı Səh. 4*

# Mehriban Əliyeva - dünya qadınlarına örnək: zəriflik, əzmkarlıq, kübarlıq və vətənpərvərlik mücəssəməsi









Əvvəli Səh. 3



Qısa müddət ərzində bir çox ölkələr Xocalı soyqırımını rəsmən soyqırımı kimi qəbul etmişdir. Əlbəttə, bu onun gördüyü işlərin yalnız bir qismidir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr səhiyyə, mədəniyyət, sosial sahə, ekologiya sahələrindən əlavə, idmanı da geniş əhatə edir. İlk Avropa Oyunlarının yüksək, güclü və peşəkar səviyyədə təşkil olunması və həyata keçirilməsində, Formula 1 yarışlarının Təşkilat Komitəsinin rəhbəri kimi, xanım Mehriban Əliyevanın böyük və əvəzolunmaz əməyi vardır.

Bildiyiniz kimi, hər bir ölkənin sosial-iqtisadi yüksəlişi, bütövlükdə onun inkişafını şərtləndirən amillərdəndir. Azərbaycanda həmin uğurların əsasını Ümummilli lider Heydər Əliyevin siyasi kursunun ləyaqətlə davam etdirilməsi təşkil edir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən mühüm dövlət proqramlarının və genişmiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində əhalinin rifahı yüksəldilmiş, paytaxtla bölgələr arasında fərqin aradan qaldırılması istiqamətində addımlar atılmışdır. Dövlət başçımızın cəmiyyətin inkişafına yönəlmiş qərarlar qəbul etməsi, bizi əhatə edən problemlərə böyük həssaslıqla yanaşması Onun vətəndaşlara olan diqqətinin nümunəsidir. Birmənalı şəkildə qeyd etməliyik ki, ölkə həyatındakı bu dəyişikliklərdə Mehriban xanım Əliyevanın müstəsna rolu olmuşdur.

Mehriban xanımın Milli Məclisin deputatı olaraq fəaliyyət dövrü də özündə bir sıra əhəmiyyətli məqamları əks etdirməkdədir. Məhz onun millət vəkilliyi zamanında çoxsaylı humanizm aksiyaları həyata keçirildi, çoxsaylı məhbusların azadlığa buraxılması, ailələrinə qovuşmaları prosesində münbit addımlar atıldı. Eyni zamanda, parlament fəaliyyətinin digər sahələrində də Mehriban Əliyevanın yorulmaz əməyi öz bəhrələrini verdi.

## Genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti göstərən, bəşəriyyətin ali ideallarına xidmət edən Mehriban xanım Əliyeva bütün dünyada müasir Azərbaycan qadınının obrazını təcəssüm etdirir

Lakin buna qədərki fəaliyyətlərin əsas qismlərindən biri Heydər Əliyev Fonduna rəhbərliklə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, təbliğ edilməsi işini qarşısına məqsəd qoyan Fond, eyni zamanda, milli-mənəvi dəyərlərin qorunmasında, qadın və uşaq hüquqlarının müdafiəsi, elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekologiya və s. sahələrində maraqlı layihələr həyata keçirir. Həyata keçirilən “Yeniləşən Azərbaycana yeni məktəb”, “Talassemiyasız həyat”, “Diabetdən əziyyət çəkən uşaqlara qayğı”, “Uşaq evləri və internat məktəblərinin inkişafı”, “Təhsilə dəstək”, internat həyatı başa çatan qızlar üçün yaşayış binasının tikilməsi və digər bu kimi layihələr uşaqların və ümumilikdə ailələrin rifahının yaxşılaşdırılmasına yönəlmişdir.

Mehriban xanımın təşəbbüsü ilə qadın hüquqlarının müdafiəsi istiqamətində apardığı işlər xüsusilə qeyd olunmalıdır. Məsələn, “XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə” layihəsi ölkədə böyük əks-səda doğurmuşdu. Qadın və uşaqların məişət zorakılığından müdafiəsinə yönəlmiş “Məişət zorakılığı haqqında Qanun” 2010-cu ildə qəbul olunmuşdu. Həmin Qanunun qəbul olunmasında, Ailə Məcəlləsində qızlar üçün nikah yaşının 18-ə qaldırılması ilə bağlı dəyişiklik edilməsində Mehriban xanım Əliyeva böyük təşəbbüs göstərmişdi. Bunun nəticəsi olaraq, erkən nikahlar və məişət zorakılığı ilə bağlı cinayətlərin sayı azalmaqdadır.

## Mehriban Əliyevanın geniş və əhatəli fəaliyyəti beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə yönəldilməsinə imkan yaradıb

Mehriban xanımın təşkilatçılığı və dəstəyi ilə bağlı ölkədə keçirilən beynəlxalq tədbirlərin çox böyük əhəmiyyəti vardır. Onların sırasında “Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi”, “Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması”, Krans-Montana Forumu çərçivəsində “Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüquqludur” mövzularda keçirilən konfransları, habelə dünya birliyini tolerantlıq və multikultural dəyərlərə dəvət edən nəhəng tədbirləri göstərmək olar.

Bütün bunların nəticəsi olaraq deyə bilərik ki, Mehriban Əliyevanın geniş və əhatəli fəaliyyəti beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə yönəldilməsinə imkan yaradıb. O, ölkənin dinamik inkişafına verdiyi mühüm töhfələrə, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, həmçinin, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə nəinki Azərbaycan Respublikasının, eləcə də müxtəlif dövlət və beynəlxalq təkilatların mükafat və fəxri adlarla təltif olunmuşdur.

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti göstərən, bəşəriyyətin ali ideallarına xidmət edən Mehriban xanım Əliyeva bütün dünyada müasir Azərbaycan qadınının obrazını təcəssüm etdirir. O, nəinki ölkə qadınları, eləcə də dünya qadınları üçün örnəkdir və bizlər Azərbaycan xalqının nümayəndələri olaraq bu amildən qürur və fərəh hissi keçiririk!

***Bəhruz QULİYEV,***
***“SƏS” qəzetinin baş redaktoru,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# YAP İdarə Heyəti Siyavuş Novruzovun istefasını təsdiq edib

Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Siyavuş Novruzovun istefası qəbul edilib. YAP-dan SİA-ya verilən məlumata görə, S.Novruzov istefa ilə bağlı YAP İdarə Heyətinə müraciət edib və İdarə Heyəti istefa müraciətini təsdiq edib. Qeyd edək ki, bir müddət öncə Siyavuş Novruzov Yeni Azərbaycan Partiyası İcra katibinin müavini vəzifəsindən istefa etmişdi.

# Zakir Həsənov Rusiyanın Müdafiə naziri Sergey Şoyqu ilə görüşüb




Avqustun 25-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qonaqları salamlayan Azərbaycanın Müdafiə naziri vurğulayıb ki, dövlətlərimizin başçılarının dostluq münasibətləri ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik inkişafını müəyyənləşdirir.

Bölgədəki hərbi-siyasi vəziyyətdən danışan general-polkovnik Zakir Həsənov bildirib ki, Ermənistanın işğalçılıq siyasəti təkcə Azərbaycanda deyil, bütün regionda sülhə, sabitliyə, təhlükəsizliyə əsas təhdiddir. Ermənistan tərəfinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribatlara da toxunan Zakir Həsənov qeyd edib ki, bu, Azərbaycan ilə MDB ölkələri arasında əlaqələrin sarsıdılmasına yönəldilib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya Federasiyasının rolunu qeyd edən Azərbaycanın Müdafiə naziri vurğulayıb ki, bütün beynəlxalq təşkilatlar kimi, Rusiya da ölkəmizin ərazi bütövlüyünü tanıyır, onun müstəqilliyinə və suverenliyinə hörmətlə yanaşır.

Səmimi görüşə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirən Rusiyanın Müdafiə naziri Ermənistan ilə sərhəddə baş vermiş son döyüş toqquşmaları zamanı şəhid olmuş Azərbaycan hərbi qulluqçularının ailə üzvlərinə dərin hüznlə başsağlığı verib.

Ordu generalı Sergey Şoyqu Rusiyadan Ermənistana təyyarələr vasitəsilə silahların daşınması barədə son zamanlar mətbuatda yayılan məlumatlara münasibət bildirərək qeyd edib ki, bu hərbi daşınmalar Ermənistana silah və hərbi texnikanın, həmçinin digər hərbi əmlakın tədarükü üçün deyil, Rusiyanın bu ölkədəki 102-ci hərbi bazasında genişmiqyaslı tikinti işlərinin aparılması üçün nəzərdə tutulan inşaat materiallarının çatdırılması və həmin bazada xidmət edən çağırışçıların rotasiyası məqsədilə həyata keçirilib. O, xüsusilə qeyd edib ki, Rusiya bu günədək Azərbaycana qarşı yönələn heç bir addım atmayıb və bundan sonra da atmayacaq.

Tərəflər, həmçinin beynəlxalq və regional təhlükəsizlik məsələləri, hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti və əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, hərbi-texniki əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# BQXK əsir götürülən erməni diversantla bağlı danışıqlara başlayıb



*Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) əsir götürülən erməni diversantla bağlı danışıqlara başlayıb. Bu barədə SİA-ya BQXK-nin Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib. O bildirib: "BQXK hər iki tərəfin aidiyyatı qurumları ilə bu məsələ ilə bağlı əlaqədədir. Komitə mandatına əsasən, münaqişə nəticəsində saxlanılan şəxslərə baş çəkir, bu şəxslərə olan rəftarı və onların saxlanma şəraitini monitorinq edir və həmçinin bu şəxslərə ailə əlaqələrini saxlamağa köməklik göstərir".*

*Qeyd edək ki, Avqustun 23-də saat 05:45 radələrində cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd göstərib. Cəbhənin bu istiqamətdə yerləşən Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur edilib. Döyüş zamanı erməni diversiya qrupunun komandiri, ilkin dindirməyə görə baş leytenant Qurgin Alberyan, əsir götürülüb.*

# Azərbaycanda 133 nəfər koronavirusa yoluxdu, 86 nəfər sağaldı




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 133 yeni yoluxma faktı qeydə alınıb, 86 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 35 559 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 33 190 nəfər müalicə olunaraq sağalıb, 521 nəfər vəfat edib, aktiv xəstə sayı 1 848 nəfərdir.

# Misir qəzeti ərəb dünyasının Azərbaycanla iqtisadi əməkdaşlığının perspektivlərindən yazır


Editor Ashraf AboArafe
ALDIPLOMASY

Ashraf AboArafe

As Azerbaijan makes promising and strategic steps in advancing economic freedom, "Egypt looks forward to cementing cooperation with Azerbaijan and pumping further Azerbaijani investments into the domains of major national projects,

Misirin "Aldiplomasy" qəzetində Misir və digər ərəb ölkələrinin Azərbaycanla iqtisadi əməkdaşlığının perspektivlərindən bəhs edən geniş məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, qəzetin baş redaktoru Əşrəf Əbu Ureyfin müəllifi olduğu "Azərbaycanın perspektivli və strateji iqtisadi kursu Misiri və ərəb sərmayəçilərini cəlb edir" sərlövhəli məqalədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu enerji və kommunikasiya layihələri, xüsusən Ələt Azad İqtisadi Zonasından bəhs edilir.

Müəllif qeyd edir ki, hələ 2018-ci ildə iki ölkə arasında Süveyş Kanalı İqtisadi Zonasına, Misirin və Azərbaycanın investisiya mühitinə dair təqdimatlar keçirilib. Qahirə strateji əhəmiyyətə malik olan Ələt Azad İqtisadi Zonasına da böyük maraq göstərir. Artıq Avropa ilə Asiya arasında nəqliyyat habına çevrilən Azərbaycan iqtisadiyyatı 2004-2019-cu illərdə 3,4 dəfə böyüyüb, strateji valyuta ehtiyatları isə 27,6 dəfə artıb. Dünya İqtisadi Forumu və digər beynəlxalq təşkilatlar bu inkişafı öz hesabatlarında qeyd ediblər.

Məqalədə Azərbaycanla Misir arasında iqtisadi əməkdaşlıqla yanaşı, turizm sahəsində də əlaqələrin möhkəmləndiyi qeyd olunub. Müəllif ötən ilin oktyabrında iki ölkənin Xarici İşlər nazirlərinin bu məsələyə dair apardıqları müzakirələri, 2018-ci ilin noyabrında Bakı ilə Şarm əl-Şeyx arasında birbaşa aviareyslərin açılmasını bu sahədə atılan mühüm addımlar kimi vurğulayıb.

Baş redaktor Misir və Azərbaycanın ticarət həcmini 7 milyard dollara çatdırmaq barədə planlarını da xüsusi olaraq qeyd edib. O, həmçinin Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri şirkətlərinin də Azərbaycanla alternativ və bərpa olunan enerji mənbələri üzrə əməkdaşlığa dair sazişlər imzaladıqlarını diqqətə çatdırıb. Əlavə edib ki, Körfəz Əməkdaşlığı Şurası dövlətlərinin, onların şirkətlərinin böyük iqtisadi potensiala malik olan Azərbaycanla əməkdaşlığı bütün tərəflər üçün sərfəlidir.

# Baş Prokurorluq və DTX Ermənistan ordusunun diversiya qrupunun komandirinin əsir götürülməsi ilə bağlı birgə məlumat yayıb

Avqustun 23-də saat 06 radələrində cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun komandiri, baş leytenant 1989-cu il təvəllüdlü Qurgen Alaverdyan Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində müəyyən edilərək saxlanılıb.



Azərbaycan Respublikası Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, Qurgen Alaverdyanın Ermənistan Silahlı Qüvvələrinin apardığı təcavüzkar müharibələr nəticəsində işğal edilmiş Kəlbəcər rayonu ərazisində qanunsuz olaraq yaradılmış silahlı birləşmələrin tərkibində iştirak edərək Azərbaycan Respublikasının hərbi qulluqçularına, müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etməsinə, habelə onlara qarşı zorakılıq hərəkətləri etməsinə, insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsinə yönələn hərəkətlər törətməsinə, eləcə də, qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini və döyüş sursatı əldə edib saxlaması, daşıması və gəzdirməsinə, habelə Ermənistan Respublikası xüsusi xidmət orqanlarının tapşırığı ilə 2020-ci il avqustun 23-də ölkəmizin təhlükəsizliyi zərərinə istifadə olunması məqsədilə dövlət sirri təşkil edən məlumatları toplamaq və Ermənistan Respublikasına ötürmək məqsədilə casusluq etməklə dövlət sərhədini qanunsuz olaraq keçməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Faktla bağlı Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 276-cı (casusluq), 279.1-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma), 228.1-ci (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə ibtidai istintaqın hərtərəfli, tam və obyektiv aparılması üçün Baş Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətinin peşəkar əməkdaşlarından ibarət birgə istintaq-əməliyyat qrupu yaradılıb.

Törədilmiş cinayət hadisəsinin xarakter və mürəkkəbliyi nəzərə alınmaqla cinayət işi üzrə istintaqın aparılması Baş prokuror tərəfindən Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb. Hazırda iş üzrə zəruri və intensiv istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Yazır, danışır və ilk dəfə göstərir "SƏS" qəzeti!

*Azərbaycanın müstəqil mətbuatında daha bir yenilik*




***Azərbaycanın müstəqil mətbuatında özünəməxsus yeri və rolu olan "SƏS" qəzeti ölkədə daha bir ilkə imza atıb. SİA xəbər verir ki, artıq qəzetin oxucuları bir sıra informasiyaları videogörüntü vasitəsi ilə də izləyəcəklər. Belə ki, videoxəbərləri izləmək üçün android sistemli telefonlara və smartfonlara QR Code Reader skine proqramını yükləmək və kamera bölümünə daxil etməklə informasiyanın linkinə daxil olmaq lazımdır. Qeyd edək ki, İphone (Ayfon) tipli telefonlara həmin proqramı yükləməyə ehtiyac yoxdur. Belə ki, bu model smartfonların kameralarını QR Code-yə yaxınlaşdırmaq kifayət edir.***

Yeniliklə bağlı "SƏS" Media Qrupunun rəhbəri, qəzetin baş redaktoru Bəhruz Quliyev bildirib ki, müasir texnologiyalar dövründə bütün sahələrdə olduğu kimi, qəzetçilik sahəsində də yeniliklərə, kreativliklərə ehtiyac duyulur. "Məhz bu baxımdan, qərara gəldik ki, ideyanı ilk olaraq biz - "SƏS" qəzeti olaraq reallaşdıraq və çox sevindirici haldır ki, bu yeniliyi biz həyata keçirdik", deyən Bəhruz Quliyev bunu bütövlükdə ölkə mətbuatının uğuru kimi qiymətləndirib: "Hesab edirəm ki, bu, yalnız "SƏS" qəzetinin uğuru deyil, həm də bütövlükdə mətbuatımızın uğurudur. Bu münasibətlə həmkarlarımı təbrik edir və növbəti yeniliklərə imza atmalarını arzulayıram".

Baş redaktor əlavə edib ki, "SƏS" qəzetinin balansında "SƏS" İnformasiya Agentliyi və "SƏS" İnternet Televiziyası da fəaliyyət göstərir və internet TV-nin də ilk olaraq bu media qurumunda fəaliyyətə başlaması vaxtilə iklərdən olub. "Bu baxımdan da sevindiricidir ki, növbəti kreativliyə və yeniliyə biz imza atmışıq", Bəhruz Quliyev sonda vurğulayıb.

***Rövşən RƏSULOV***

# Deputat: "Azərbaycan dövləti sahibkarlığın dəstəklənməsi siyasətini davam etdirir"



***Azərbaycan dövləti mütəmadi olaraq sahibkarlara dəstək nümayiş etdirir. Xüsusən pandemiya dövründə sahibkarlara dəstəyin artırılması, həm iqtisadi paket, həm dolayı təşviq tədbirləri ilə sahibkarların dəstəklənməsi ondan xəbər verir ki, ən həssas dönəmlərdə belə Azərbaycan dövləti sahibkarının yanındadır və sahibkarlığın dəstəklənməsi siyasətini davam etdirir.***

AZƏRTAC xəbər verir ki, bu barədə Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

O bildirib ki, sahibkarların da dövlət dəstəyinə uyğun olaraq məcburi öhdəlikləri vaxtında yerinə yetirməsi vacibdir. Pandemiya da göstərdi ki, bu gün qeyri-rəsmi məşğulların sayı kifayət qədər çoxdur. Çoxlu sayda vətəndaşlarımız var ki, sahibkarlıq subyektləri onlarla əmək müqaviləsi bağlamır. Çox təəssüf ki, qeyri-leqal və ya gizli iqtisadiyyatda çalışaraq vergidən yayınan sahibkarlar var. Onlar bir tərəfdən vergidən yayınırlar, digər tərəfdən isə haqsız rəqabət yaradırlar. Bu da təbii ki, iqtisadi inkişafa mane olan amillərdən hesab olunur. O baxımdan sahibkarların dövlət qarşısında fiskal və məcburi öhdəlikləri zamanında yerinə yetirməsi vacibdir. Digər tərəfdən pandemiya sahibkarların korporativ sosial məsuliyyətinin gücləndirilməsi məsələsini də gündəmə gətirir. "Prezidentin ötən müşavirələrdə qeyd etdiyi kimi, sahibkarlıq subyektlərində korporativ idarəetmə formalaşmalıdır. Bu, şəffaflığın artırılması, səmərəliliyin yüksəlməsi və gizli iqtisadiyyatın leqallaşdırılması baxımından çox vacibdir. Digər tərəfdən isə sahibkarların korporativ məsuliyyəti artmalıdır. Avropa ölkələrinin təcrübəsi göstərir ki, pandemiya daxil olmaqla, həssas dönəmlərdə vətəndaşlara dövlətlə yanaşı, sahibkarlar dəstək nümayiş etdirir. Korporativ sosial məsuliyyət sahibkarların vətəndaşları dəstəkləməsi və fərqli sosial humanitar layihələrin reallaşması baxımından çox vacibdir. Dövlətin artan dəstəyi fonunda sahibkarların da korporativ məsuliyyətinin formalaşması, ən əsası korporativ idarəetməni tətbiq etməsinə ehtiyac var ki, daha şəffaf sahibkarlıq subyektləri formalaşsın, digər tərəfdən isə sahibkar dövlətlə yanaşı pandemiya dönəmi daxil olmaqla, həssas dönəmlərdə vətəndaşlara birbaşa yardım, dəstək nümayiş etdirsinlər", - deyə deputat qeyd edib.

# "Ötən ildən bəri Azərbaycanda 1 milyon 800 min ağac əkilib"



Meşə pozuntuları ilə əlaqədar çoxlu şikayətlər var. Etiraf etmək lazımdır ki, bir çox hallarda meşələrin qırılmasında iştirak edənlər gözətçilərlə əlbir olurlar və ya bu proses gözətçilərin səriştəsizliyi ucbatından baş verir. Elə həmin səbəblərə görə ötən il və bu ilin altı ayı ərzində 647 meşə gözətçisi işdən çıxarılıb və yeniləri ilə əvəz edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Ekologiya və Təbii Sərvətlər nazirliyi Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə nazirliyin "facebook" səhifəsində istifadəçilərin suallarına cavab verərkən deyib.

Onun verdiyi məlumata görə, Təhsil Nazirliyi, Dövlət Sərhəd Xidmətinin və ucqar regionlarda yaşayan əhalinin təchizatı üçün il ərzində ölkəmizdə 64 min kubmetr odun tədarükünə ehtiyac var: "Onu da deyim ki, Azərbaycan bu sahədə irəliyə doğru çox böyük addım atıb. Ölkəmizin ərazisində 96 faiz qazlaşdırma aparılıb və bu, çox yüksək bir göstəricidir. Qaz yanacağı olmayan ucqar ərazilər üçün odun tədarükü vacibdir. Bu prosesdə həm odun, həm də içlik materiallar əldə edilərək maya dəyəri nəzərə alınmaqla bir sıra müəssisələrə satışı həyata keçirilir. Əksər hallarda meşə materialından qismən yeşiklərin düzəldilməsi üçün istifadə edilir.

Keçən il və bu ilin yeddi ayında qeyri-meşə fondunun torpaqlarında 356 min, meşə fondu torpaqlarında keçən il 524 min, bu il 261 min ağac əkilib. Bu, 1 milyon 800 min ağac deməkdir. Hansısa ərazilərdə çox nadir hallarda meşə qırılması və odun tədarükü zamanı əldə edilən içlik materialların sexlərə verilməsində qanunsuz hallara qarşı ciddi mübarizə aparılır".

# Rauf Əliyev: "Hər kəs qanun qarşısında bərabərdir"



"Artıq bir neçə aydır ki, COVID-19 pandemiyasına qarşı mübarizə tədbirləri məqsədi ilə respublikamızda karantin rejimi tətbiq olunub və bu rejim hələ davam edir. Bu rejimin tətbiq edilməsində əsas məqsəd Azərbaycan vətəndaşının sağlamlığının qorunmasıdır". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Rauf Əliyev deyib.

R.Əliyev bildirib ki, koronavirus pandemiyasına qarşı aparılan, digər ölkələrə nümunə göstərilən kompleks tədbirlər öz müsbət nəticələrini verir. Ancaq şox təəssüflər olsun ki, son vaxtlar bəzi insanlarda arxayınçılıq hissi yaranmış və məsuliyyətsizlik edərək karantin rejimini pozaraq müxtəlif qanuna zidd hərəkətlərə yol verirlər, o cümlədən toy məclisi təşkil edirlər. Bunu ancaq qanun pozğuntusu kimi qiymətləndirmək olar.

Deputat qeyd edib ki, koronavirus pandemiyası elan edildikdən sonra Nazirlər Kabinetinin yanında yaradılmış Operativ Qərargahın qəbul etdiyi qaydalara görə karantin rejimində toy məclislərinin təşkili qadağandır: "Bu qadağalara vəzifəsindən asılı olmayaraq hamı riayət etməlidir. Hər bir vətəndaş, tutduğu vəzifələrdən, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq karantin qaydalarına ciddi əməl etməlidirlər. Hər bir şəxs karantin tədbirlərinin pozulmasına görə hüquqi məsuliyyət daşımalıdır. Azərbaycan hüquqi dövlətdir, hamı qanun qarşısında bərabərdir. Hər kəs öz əməlinə görə məsuliyyət daşıyır. Katantin dövründə qaydaların pozulması hallarını həm bir vətəndaş kimi, həm də Milli Məclisin deputatı kimi qınayıram və koronavirus pandemiyası dövründə vətəndaşlarımızı karantin rejiminin tələblərinə riayət etməyə çağırıram".

# Pelosi: "Tramp ABŞ-ın daxili düşmənidir"



ABŞ Nümayəndələr Palatasının rəhbəri Nensi Pelosi ABŞ prezidenti Donald Tramp və Respublika partiyasının nümayəndələrini ölkəni "daxili düşmənləri" adlandırıb. Bu barədə "Fox News" yazıb. "Konstitusiyanı xarici və daxili bütün düşmənlərdən qorumaq üçün and içirik. Təəssüf ki, səsvermə sistemimizin və Konstitusiyamızın daxili düşmənləri Pensilvaniya prospekti 1600 ünvanında (Ağ Evin ünvanı - red.) və Konqresindəki müttəfiqləri ilə birlikdədir", - N.Pelosi deyib. Qeyd edək ki, ABŞ-ın 59-cu prezident seçkisi noyabrın 3-nə təyin edilib. Keçmiş vitse-prezident Co Bayden seçkilərdə demokratları təmsil edəcək, hazırkı dövlət başçısı Donald Tramp isə respublikaçılardan çıxış edəcək.

# Tacikistan portalında Naxçıvan haqqında məqalə yerləşdirilib

Tacikistanın faraj.tj portalında Naxçıvan haqqında tacik dilində məqalə yerləşdirilib. AZƏRTAC xəbər verir ki, məqalədə Naxçıvanın qədim tarixi və müasir inkişafı haqqında məlumat yer alıb. Vurğulanır ki, bu diyar əsrlərdən bəri Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Naxçıvan ta qədimdən Şərqin ticarət, elm və mədəniyyət mərkəzlərindən biri kimi tanınıb, sənətkarlıq ənənələri ilə məşhur olub.

Məqalədə qədim dövrlərdən bu günədək Naxçıvanın dövlət quruluşu haqqında da oxuculara məlumat verilir. Vurğulanır ki, Naxçıvan dünya elminə və mədəniyyətinə tanınmış şəxsiyyətlər bəxş edən diyar kimi də ad çıxarıb. Atabəylər dövlətinin hökmdarı Şəmsəddin Eldəniz, memar Əcəmi Naxçıvani, yazıçı və dramaturq Hüseyn Cavid, yazıçı, ictimai xadim Cəlil Məmmədquluzadə, tanınmış hərb xadimi Cəmşid Naxçıvanski, dünya şöhrətli dövlət xadimi Heydər Əliyev və başqaları bu sıradadır.




Naxçıvan Muxtar Respublikasının ərazisi, əhalisi haqqında da söhbət açıldığı məqalədə bildirilir ki, respublikada 450 min adam yaşayır.

Materialda, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışılır, Naxçıvanın 30 ildir ki, Ermənistan tərəfdən blokadaya alındığı diqqətə çatdırılır. Yazıda "Naxçıvan" toponimi də izah edilib.



**"Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasında dövlətçilik, dövlətə xidmət kimi prinsiplər əsas yer tutduğundan hər zaman Azərbaycanın hərtərəfli inkişafına töhfə verməyə səy göstərmiş, bunu gördüyü işlərlə təsdiqləmişdir. Məhz onun bu xidmətləri 2017-ci ilin fevralında dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsini şərtləndirdi. "Mən işimi sosial məsələlərin, əhalinin aztəminatlı hissəsinin problemlərinin həlli üzərində qurmaq niyyətindəyəm. Mərhəmətsizlik və laqeydlik qorxulu anlayışlardır. İstər ictimai xadim, istərsə də dövlət məmuru üçün humanizmi qorumaq vacibdir" söyləyən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ötən üç ildən artıq dövrdə gördüyü işlərin miqyasının nə qədər böyük olduğu göz önündədir". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.***

# "Sədaqət, mərhəmət, insanlara qayğı Mehriban xanım Əliyevanın həyat amalıdır"

Vüqar Rəhimzadə diqqəti tariximizə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil olmuş ulu öndər Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmış Heydər Əliyev Fondunun fəaliyyətinə yönəldərək bildirmişdir ki, 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Fondun bir çox ölkələrdə nümayəndəlikləri fəaliyyət göstərir, qurum çoxsaylı layihələri ilə artıq təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da diqqətdədir: "Azərbaycan həqiqətlərinin, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Fondun gördüyü işlər ölçüyəgəlməz dərəcədə böyükdür. XX əsrin ən dəhşətli faciəsi olan Xocalı hadisəsinin soyqırımı kimi tanıdılması istiqamətində həyata keçirilən tədbirlər öz müsbət nəticəsini göstərir. Dünyanın əksər ölkələrində Fondun dəstəyi ilə Xocalı soyqırımının hər ildönümündə böyük tədbirlər keçirilir, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət"! beynəlxalq kampaniyası çərçivəsində erməni yalanlarını, Azərbaycan həqiqətlərini, Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi vəhşilikləri, təkcə Azərbaycana deyil, bütünlükdə insanlığa məxsus olan dini, tarixi və mədəni abidələrin dağıdılmasını özündə əks etdirən çoxlu sayda kitablar nəşr etdirilir, dünya ictimaiyyətinə çatdırılır. Ölkə daxilində və dünya arenasında həyata keçirdiyi layihələrin əhəmiyyətini nəzərə alan ölkə Prezidenti İlham Əliyev Mehriban xanım Əliyevanı Vətənimizin ən ali mükafatı - "Heydər Əliyev mükafatı" ilə təltif edərkən bildirmişdir ki, Fondun bütün təşəbbüsləri milli ruha əsaslanır: "Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycanın olduğu kimi dünyaya təqdim edilməsi- bütün bu şərəfli funksiyalar bu Fondun üzərinə düşür".

V.Rəhimzadə bildirib ki, Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanması, inkişaf etdirilməsi sahəsindəki yorulmaz fəaliyyətinə görə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülən Mehriban xanım Əliyeva eyni zamanda, müsəlman dünyasını özündə birləşdirən İslam Konfransı Təşkilatının ən böyük qurumu olan İSESCO-nun xoşməramlı səfiridir: "Onun səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer almışdır. Muğam sənətinin, aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, tar ifaçılığı sənətinin UNESCO-nun nadir, şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında əməkdaşlığın davamlılığına xidmət edən töhfələrdir. Bir əsas məqamı da qeyd edək ki, 26 avqust tarixinin Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üstündə yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunması da rəmzi məna daşıyır. Bu tarix Mehriban xanım Əliyevanın doğum günüdür. Ötən il Azərbaycanın ev sahibliyi etdiyi tədbirlər sırasında özəlliyi ilə diqqət çəkən UNESCO-nun Ümudünya İrs Komitəsinin 43-cü sessiyasının ölkəmizdə keçirilməsində də Azərbaycanın Birinci vitse-prezidentinin rolu, payı danılmazdır. Mehriban xanım Əliyevanın istər UNESCO ilə əməkdaşlıq əlaqələrinin inkişafındakı xidmətləri, istərsə də milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin, tariximizin qorunması və inkişafı yönümündə atdığı addımlar Azərbaycanın belə bir mühüm tədbirə ev sahibliyi etməsinə öz töhfəsini vermişdir. Mehriban xanım Əliyevanın İSESCO-nun xoşməramlı səfiri kimi müsəlman dünyasının birliyi, həmrəyliyi istiqamətində atdığı addımlar təqdirəlayiqdir. O, həmçinin müxtəlif mədəniyyətlərin, dinlərin qovuşağında yerləşən, tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verən Azərbaycanın bu mövqeyinin daha da möhkəmləndirilməsi istiqamətində də davamlı addımları ilə diqqət çəkir. Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə "Evrovision" mahnı yarışmasının, eyni zamanda, ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsi Azərbaycanın malik olduğu imkanların dünyaya təqdimatında əhəmiyyətli rol oynamışdır. Məqsəd ötən hər günü tarixinə uğur səhifəsi kimi yazan Azərbaycanın beynəlxalq aləmdə yeri və rolunu möhkəmləndirmək, həqiqətlərimizi dünya ictimaiyyətinə olduğu kimi çatdırmaqdır".

"Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətini təbii ki, bir yazı ətrafında tam əhatə etmək qeyri-mümkündür" söyləyən V.Rəhimzadə bildirib ki, onun hər addımının əsasında xeyirxahlıq, humanizm, səmimiyyət, vətəndaşlıq təəssübkeşliyinin yüksək səviyyədə qorunması dayanır. Mehriban xanım Əliyevanın aforizmə çevrilən "Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir" fikri qazandığı uğuların, gördüyü işlərin bələdçisidir. Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdimatında bu prinsipləri xüsusi diqqətə çatdırmışdır: "Gündəlik fəaliyyətimizdə insanseverlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar".

V.Rəhimzadə diqqəti Mehriban xanımın xeyirxahlığını özündə təcəssüm etdirən addımlarına yönəldərək bildirib ki, hər bir millətin gələcəyi kimi dəyərləndirilən təhsilin inkişafı istiqamətində atdığı addımlar göz önündədir: "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 2 mindən artıq yeni məktəb tikilib və ya əsaslı təmir olunub. Eyni fikirləri insanların sağlamlığının təminatı üçün səhiyyə müəssisələrinin tikintisi ilə bağlı da söyləyə bilərik. Mehriban xanım Əliyevanın gələcəyimiz olan uşaqların tərbiyəsi, inkişafı ilə bağlı həyata keçirdiyi layihələr də davamlılığı ilə diqqət çəkir. Uşaq evlərinin və internat məktəblərinin ən müasir səviyyədə təşkilinə diqqəti artıran Mehriban xanım Əliyeva körpələrin fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün əlindən gələni əsirgəmir. Bu günədək müalicəsi nisbətən çətin və uzunmüddətli olan yüzlərlə xəstə, əlil körpənin sağalıb yenidən həyata qayıtmasında böyük rolu və xidmətləri olan Mehriban xanıma ünvanlanan minnətdarlıq məktublarının sayı sonsuzdur. Validеyn hamayəsindən məhrum olan bütün uşaqları doğma övladı kimi sevən, qayğısını əsirgəməyən Mehriban xanım "Hər uşağın ailəyə ehtiyacı var" söyləyir və bu fikri xüsusi vurğulayır ki, heç bir internat, uşaq evi ən müasir, bütün tələblərə cavab versə belə heç vaxt ailə mühitini, ailə tərbiyəsini əhatə edə bilməz. Ümumiyyətlə, Mehriban xanımın xeyirxahlığından irəli gələn layihələrinin istər ölkə daxilində, istərsə də ölkənin hüdudlarından kənarda miqyası çox genişdir".

Baş redaktor Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti sırasında Milli Məclisin deputatı olduğu illərdə gördüyü işlərdən, qazandığı seçici etimadından da geniş bəhs edib. Bildirib ki, sözü ilə əməli bir olan, verdiyi vədləri layiqincə yerinə yetirən, mühüm problemlərin həllinə yüksək səviyyədə nail olan Mehriban xanım Əliyevanın gördüyü işlər Xəzər rayonunun seçicilərində böyük ruh yüksəkliyi yaratmışdır. Seçici etimadını qazanmaq böyük xoşbəxtlikdir: "İnsan amilinə yüksək dəyərin verildiyi ölkəmizdə Amnistiya aktlarının qəbulunda Mehriban xanım Əliyevanın təşəbbüskar kimi çıxış etməsi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanan addımlar sırasındandır. Təbii ki, bu, onun humanistliyindən, mərhəmətindən irəli gəlir. Mehriban xanım bildirir ki, mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir. Bir dəfə səhv etmiş insanların bağışlanmaq hüququ var. Bu gün biz yenidən cəmiyyətdə öz yerlərini tutmaları, layiqli həyat yaşamaları üçün onlara şans verməliyik".

"Bunlar Mehriban xanım Əliyevanın xidmətlərinin çox az bir hissəsidir" söyləyən V.Rəhimzadə vurğulayıb ki, Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasını təşkil edən prinsiplərin dəyişməzliyi onun uğurlarının müşayiətçisidir: "Ən böyük mükafat xalqın sevgisidir. Möhtərəm Prezidentimiz İlham Əliyev Mehriban xanım Əliyevanı Azərbaycanın Birinci vitse- prezidenti kimi təqdim edərkən bildirmişdir: "Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Ölkə Prezidentinin bu etimadını yüksək dəyərləndirən Mehriban xanım Əliyeva "Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam" vədini verməklə, istər bu günədək Heydər Əliyev Fondunun prezidenti, istərsə də son üç ildən artıq dövrdə Azərbaycanın Birinci vitse-prezidenti kimi bütün fəaliyyətini məhz bu prinsiplər üzərində qurub".

V.Rəhimzadə koronavirus infeksiyası ilə mübarizənin hazırkı dövrün əsas problemi olduğunu önə çəkərək bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva dövlətimizin başçısı cənab İlham Əliyevlə birgə COVID-19-la aparılan ciddi mübarizədən uğurla çıxmaq üçün səylər göstərir: "Onun koronavirus infeksiyası ilə bağlı xalqımıza dəfələrlə ünvanladığı müraciətlərdə bu inam öz əksini tapır ki, xalqımızın ən gözəl xüsusiyyətləri-ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik. Azərbaycanın Birinci vitse-prezidentinin "Xalqımızın həmrəy olmaq, insansevərlik nümayiş etdirmək, diqqət və qayğı göstərmək bacarığı hər birimizdə ancaq qürur hissi yaşadır" kimi fikirləri bir daha hər bir Azərbaycan vətəndaşına şəfqət, mərhəmət, humanizm, səxavət, xoş əməllər etmək, köməyə ehtiyacı olanın yanında olmaq kimi ən yüksək və ali keyfiyyətləri aşılayır".

Vüqar Rəhimzadə dünyanın koronavirusla mübarizə apardığı bir zamanda iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində törətdiyi təxribatlar, həmçinin dünyanın müxtəlif ölkələrində soydaşlarımızın Azərbaycan Ordusuna dəstək adı altında keçirdikləri dinc aksiyalara, eyni zamanda, səfirliklərimizə, konsulluqlarımıza ermənilərin hücumları zamanı Mehriban xanım Əliyevanın xalqımıza müraciəti bir daha onun mənəvi keyfiyyətlərinin, ən əsası dövlətin, xalqın maraqlarını ən ali dəyər kimi öndə saxladığını nümayiş etdirdi: "Unutmayaq ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompyuter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur".

Baş redaktor bu ümumiləşdirmə əsasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya doğum günü münasibətilə təbriklərini çatdırıb: "Mərhəməti, sədaqəti, insanlara qayğını, dövlətə, xalqa xidməti fəaliyyətinin ən ali prinsipləri kimi qəbul edən Mehriban xanım Əliyevaya milyonların sevgisi şəksizdir. Mehriban xanım Əliyevanın fəaliyyəti təkcə Azərbaycan deyil, dünya qadınları üçün də bir örnəkdir. Ona uzun ömür, cansağlığı, yorulmaz fəaliyyətində, dövlətçiliyimizin qorunması və inkişaf etdirilməsi, azərbaycançılıq ideologiyasının təbliği istiqamətində atdığı möhtəşəm addımlarda yeni-yeni uğurlar diləyirəm".



## Dünyaya gəlişin mübarək olsun!...

Qüdrətli ölkənin qızı Mehriban
Cəsarət, məğrurluq gəlib Uludan
Hüsnünə gözəllik verib Yaradan
Dünyaya gəlişin mübarək olsun!...
Qəlbində arzular sənə yar olsun!..
Üç övlad anası dəyərli xanım
Leyla, Arzu, Heydərdir xanəmanın
Onlarla xoş ötsün sənin hər anın
Dünyaya gəlişin mübarək olsun!...
Gülüstanlı bağın növbahar olsun!...
Xalq öz həbibini sevir ürəkdən
Qəlblərdə arzular doğur istəkdən
Uğurlar yaranır min bir diləkdən
Dünyaya gəlişin mübarək olsun!...
Arzular, istəklər sənə yar olsun!...
Fəxr edirik İlhamla, Mehribanla
Qoşa addımlayır onlar inamla
Dünya ayaqlaşır bu gün zamanla
Dünyaya gəlişin mübarək olsun!...
Allahın dayağı Sizə yar olsun!...
Azərbaycan şölə saçır dünyaya
Soraqımız çatıb ulduza, aya
Zəvvarlar heyrandı gözəl Bakıya
Dünyaya gəlişin mübarək olsun!...
Qonaqpərvər yurdum
bəxtiyar olsun!...

***Ofelya Mürsəl qızı Mürsəlova, ADPU-nun keçmiş müəllimi***

# Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycan qadınları üçün deyil, beynəlxalq qadın hərəkatı, dünya qadınları üçün də örnəkdir

*YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın yap.org.az-a müsahibəsi*

Azərbaycan tarixinin bütün dövrləri qəhrəmanlıq və uğur, mərdlik və cəsarətlə zəngindir. Vətənpərvər oğullarla yanaşı bu ağır yükü daşımağı bacaran qadınlarımız da var. Müsahibəmizin mövzusu da elə bu barədə olacaq.

***- Bahar xanım, Azərbaycan qadını cəmiyyətdə, ölkənin ictimai-siyasi həyatında, dövlət idarəçiliyində aktiv təmsil olunur. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti bir nümunədir. Bu fəaliyyət fonunda dövlət qadın siyasətinin xüsusiyyətlərini necə xarakterizə edərdiniz?***

- Hər şeydən əvvəl biz baxmalıyıq ki, kim haqqında danışırıq. İlk növbədə, bizim söhbətimizin mövzusu Azərbaycan qadınıdır. Onun tarixən keçdiyi yoldur, bu tarixin ən müxtəlif inkişaf mərhələlərində üzləşdiyi çətinliklərdir, qazandığı nailiyyətlərdir, göstərdiyi mərdlik, dəyanət və fədakarlıqdır. Əlbəttə ki, Azərbaycan qadını söylədikdə ilk növbədə Şərq dəyərləri və əxlaqi ilə yanaşı, Qərbin müasir yeniliklərini özündə birləşdirən, müasir qadın obrazı göz önünə gəlir. Bu qadının həyatı çox keşməkeşli olub. O bu coğrafi məkanda yaşayan toplumun, etnik qrupların, ən müxtəlif mədəniyyətləri, dəyərləri əsasında formalaşmış, öz xalqına, vətəninə bağlı Azərbaycan qadını olaraq hər zaman kişilərlə ciyin-ciyinə fəaliyyət göstərmişdir. Öz dövlətinə malik olmanın arzusunu qəlbində daşıyıb, əməllərində sübut edib, bunun üçün qəhrəmanlıqlar göstərməyə qadir olan övladlar yetişdirib, nəsil böyüdüb.

Tarixi nailiyyətlərimiz içərisində əlbəttə ki, birinci yerdə Azərbaycanın müstəqilliyi dayanır. Onun əldə olunmasında Azərbaycan qadınının özüməməxsus xidməti və rolu vardır. Əlbəttə ki keçdiyimiz yol təkamülə əsaslanıb. Biz tarixin ən müxtəlif mərhələlərində qarşımıza çıxan şansları, imkanları dəyərləndirərək ailəmiz, cəmiyyətimiz, həm də dövlətimiz üçün faydalı olmağa çalışmışıq. Hər dövr üçün də özünəməxsus örnəklərimiz olmuşdur. Bunun üzərindən çıxış edərək vurğulamaq lazımdır ki, bugünkü müasir Azərbaycan cəmiyyətinin əldə etdiyi nailliyyətlər məhz bu tarixi örnəklərə və təcrübəyə söykənir. Ən böyük nailiyyətimiz də Şərqdə, müsəlman aləmində ilk demokratik cümhuriyyətin qurulmasıdır.

Növbəti bir tarixi şans kimi ötən əsrin sonlarında müstəqilliyin yenidən bərpası illeridir. Bu dövr birmənalı şəkildə Azərbaycan qadınlarının bərabərhüququlu



iştirakı ilə səciyyələnir. Biz bu prosesdə həyatımızın bütün sahələrində uğur qazanmış qadınlarımızın çox böyük töhfəsini görmüşük və bu proses indi də davam etməkdədir. İndi artıq müstəqil dövlətin möhkəmləndirilməsi, inkişafı, onun rifah dövlətinə çevrilməsi Azərbaycan qadını başda olmaqla bütün vətəndaşlarına həm bərabər hüquqlar, həm bərabər imkanlar, həm də bərabər nəticələr əldə etməyə şərait yaradan bir səviyyədədir. Bu nailiyyətimizin də altında Azərbaycan qadınının imzası var. Örnək qadınlar hər zaman olduğu kimi müasir dövrdə də yetişməkdədir və indiki örnəklərimiz zənginliyi, müasir dövrün tələblərinə uyğunluğu, eyni zamanda dövrün çağırışlarına cavab vermək iqtidarına malik olması ilə fərqlənir. Əlbəttə bu xüsusda Mehriban xanım Əliyevanın özünəməxsus yeri və rolu haqqında fəxrlə danışmaq olar.

***- Azərbaycanda gender məsələləri hər zaman diqqət mərkəzindədir. Gender məsələləri ilə bağlı ölkədə vəziyyət necədir? Bu sahədə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələri necə dəyərləndirirsiniz?***

- Azərbaycan qadınının həm milli həm də beynəlxalq qanunvüeicilikdə nəzərdə tutulmuş hüquqlarını yerinə yetirmək üçün bütün imkanlar var. Demokratik cəmiyyət quruculuğuna üstünlük verən və daim insan hüquqlarının qorunmasını əsas prioritet istiqamət kimi nəzərdə tutan Azərbaycan Respublikası və onun hazırkı rəhbərliyi bu sənədlərdən irəli gələn öhdəliklərinə tam sadiqlik nümayiş etdirir. Fundamental insan hüquqları içərisində gender məsələləri, ailədə, cəmiyyətdə və dövlət həyatında, iqtisadi və siyasi sferada, bir sözlə həyatın bütün sahələrində qadın və kişilərin bərabər təmsilçiliyi və iştirakçılığının təmin olunması üçün bütün addımlar atılmaqdadır.

Bu siyasət Azərbaycanda qanunlarla möhkəmləndirilmiş, xüsusi dövlət proqramlarında vəzifələri müəyyənləşdirilmiş bir istiqamət kimi yerini tutur və artıq bizə hərtərəfli iştirak üçün imkan yaradan nəticələri vardır.

Xüsusilə vurğulamaq istəyirəm ki, gender bərabərliyi haqqında qanunun qəbul edildiyi vaxtdan həm onun təkmilləşdirilməsi, həm də yerinə yetirilməsini təmin edəcək icra mexanizmlərinin, institusional mexanizmlərin yaranması ilə bağlı ciddi addımlar atılmışdır.

Hazırda AQUPDK müvafiq Dövlət proqramları, Prezident Fərman və Sərəncamları, bu sahədə Azərbaycan Respublikasının siyasətini və digər səlahiyyətli dövlət qurumlarının fəaliyyətini koordinasiya etməkdədir. Qanunvericiliyin nəzərdə tutduğu qadın-kişi bərabərliyinin təmin olunması mexanizmlərinin təkmilləşməsi, dövlət proqramlarının qəbul edilməsi sahəsində təkliflərlə çıxış edir və inkişafımızın ahənginə uyğun öz üzərinə düşən vəzifəni yerinə yetirməyə çalışır.

Gender bərabərliyi (qadın-kişi) həyatımızın bütün sahələrində təmin olunmaqdadır. Bunun üçün dövlət orqanlarında gender bərabərliyinin qorunmasına məsul şəxslərin müəyyən olunmasından tutmuş bütün dövlət və seçkili orqanlarda, qərar qəbul etmə səviyyələrində, xüsusilə iqtisadi sferada qadınların kişilərlə bərabər təmsilçiliyi və iştirakçılığının təmin olunmasına xüsusi diqqət yetirilir.

Əlbəttə ki, biz daha çoxunu arzu edə və bundan daha yaxşısına nail ola bilərik. Bunun üçün həm dövlətimizin iradəsi var, həm də qadınlarımız bu prosesə çox fəal şəkildə qoşulublar. QHT-lər, mətbuat orqanları və müvafiq hüquq müdafiə təşkilatları bu istiqamətdə yeni təkliflərlə çıxış edirlər. Bizim parlamentimiz, müvafiq dövlət orqanları lazımı dəyişikliklərə hər zaman açıqdırlar. Biz elə bu il Milli Məclisin payız sessiyasında ilk dəfə olaraq Azərbaycanda gender bərabərliyinin təmin olunmasının vəziyyətinə dair, hesabatla çıxış edəcəyik.

İndi bu hesabata çox ciddi hazırlaşırıq. Nailiyyətlərimiz çoxdur, amma müəyyən problemlərimiz də var. Biz bu problemləri səsləndirməklə həm cəmiyyətin diqqətini buna yönəldəcəyik, həm də müəyyən qanunverici təşəbbüslərimiz olacaq.

Bax elə buradaca dəyərli Mehriban xanımın son onilliklər ərzində özünün rəhbərliyi ilə ailə,qadın və uşaq məsələləri sahəsində dövlət orqanları, parlamentimiz və vətəndaş cəmiyyətinin fəaliyyətinə dair bir sıra problemlərin həllinə yönəlmiş təşəbbüslərini qeyd etmək, Heydər Əiyev Fondunun xətti ilə gercəkləşdirilən milli - mənəvi və ailə dəyərlərimizin qorunmasına, gənc nəslin vətənpərvər ruhda formalaşmasına,Qarabağ həqiqətlərinin və multikultural yaşam tərzimizin dünya ölkələri və xalqları arasında təbliğinə yönəlmiş layihələrini xüsusi vurğulamaq istərdim. Bu layihələrin məqsədi, hədəfləri həm də gender əsaslı yanaşmaların möhkəmlənməsinə, onun nəticələrindən bərabər faydalanmağa və onların reallaşdırılması prossesinin özündə kişi və qadın bərabərliyinin təmin olunmasına xüsusi diqqət yetirilməkdir. Məhz bunun nəticəsidir ki, son illərdə Fondun reallaşdırdığı fəaliyyətlər çərçivəsində yüzlərlə bacarıqlı gənc oğlan və qızlar müasir standartlara uyğun kadrlar kimi formalaşmaqdadır.

***- Az əvvəl biz Mehriban xanım Əliyevanın çoxsaxəli fəaliyyətini, nümunə olmasını qeyd etdik. Həmin məsələyə qayıdıram. İnsanın formalaşmasında ailənin rolu böyük əhəmiyyət kəsb edir. Mehriban xanım həm də qayğıkeş anadır və bu missiyanı hər kəs bir fərd kimi hiss edir.***

- Mehriban xanımın fəaliyyəti o qədər çoxsaxəlidir ki, həyatımızın hansı sahəsinə diqqət yetirsək, biz orada burada onun dəstixəttini, fəaliyyətinin nəticələrini və onun bizə qazandırdığı yenilikləri görə bilərik. Bu, təkcə Azərbaycan qadınları üçün deyil, sizi əmin edirəm ki, bütün beynəlxalq qadın hərəkatı üçün, özünü ictimai-siyasi sahədə sınamaq, uğur qazanmaq, töhfə vermək istəyən bütün qadınlar üçün örnəkdir. Nəzərə almalıylq ki, Mehriban xanımın fəaliyyəti Azərbaycanın hüdudlarını çoxdan aşıb və o beynəlxalq miqyasda diqqəti daha çox çəkir. Bilirsiniz ki, Mehriban xanım YUNESKO və İSESKO-nun xoşməramlı səfiridir. Heydər Əliyev Fondunun rəhbəri kimi bütün dünyada həyata keçirdiyi layihələrlə seçilir. Həm də bu layihələrlə dünyaya bir çağırış edir, diqqətləri hamını narahat edən, xüsusən beynəlxalq xarakter almış problemlərə yönəldir. O, qadınlara, ictimai - siyasi, proseslərə qatılan xanımlara, eyni zamanda analara nümunədir.

Bu isə öz nəticəsini son dövrlər Azərbaycan qadınlarının həyatın bütün sahələrində əldə etdikləri uğurlarda daha aydın göstərir. Odur ki, Mehriban xanımın millimənəvi, o cümlədən, ailə dəyərlərini hər şeydən üstün tutan müasir xanım obrazı kimi şəxsi nümunəsi çox vacibdir.

Onun təbirincə desək, qadının ilk missiyası onun bir ana kimi üzərinə düşən vəzifələridir. Bunun öhdəsindən layiqincə gələn xanım mütləq şəkildə cəmiyyətə və dövlət həyatına da öz töhfəsini verə bilər.

Mehriban xanım nəinki öz ailəsinin timsalında,eləcə də bütövlükdə milli-mənəvi keyfiyyətlərimiz sırasında özünəməxsus yer tutan ailə dəyərlərimizin, möhkəmliyi ilə fərqlənən ailə institutumuzun qorunub saxlanması, inkişaf etdirilməsi və bu dəyərlərin həyata keçirilən siyasi konsepsiyalarda əksini tapması, sarsılmaz ideoloji bir sütun rolunu oynamasına da ciddi töhfələr verməkdədir.

O, böyütdüyü övladları, onların dövlətə, xalqa, milli-mənəvi dəyərlərimizə bağlılığı baxımından da çox gözəl bir nümunə sərgiləyir.

Deməli həm ailə üçün faydalı, həm də inkişafımızın vacib bir halqası olaraq ailənin imkanlarını dövlətə və ictimai həyata inteqrasiya etməyin mümkün örnəyini göstərir.

Bir çox hallarda bizim ictimai fəal olmaq istəyən xanımlarımız haradan və nədən başlayacağını,fəaliyyətini necə quracağını, ümumi tərəqqi prosesinə necə töhfə verəcəyini müəyyən etməyə xeyli vaxt sərf etməli olurlar. Və yaxud da hansısa stereotipləri qırmalı, hansısa çətinlikləri aşmalı olurlar.

Bu hallarda qadın zərifliyini qorumaq və elə bu zərifliyin gücündən istifadə edərək dövlətinə, xalqına yararlı, həm də örnək olmaq mümkündür. Biz məhz onun timsalında ciddi və vacib məsələlərlə də məşğul olarkən özünəməxsus zəriflik və eyni dərəcədə müdrikliyin paralel nümayişini görürük.

O, bu incə məqamları qadın fəhmi ilə duymağı, cəmiyyət həyatına faydalı olmağın heç də güclü tərəflə mənasız mübarizə aparmaq olmadığını, əksinə özünəməxsus qabiliyyət və bacarıqla məsuliyyəti bölüşmək iqtidarında olduğunu hər kəsə əməli nəticələrlə sübut edir.

Mehriban xanımın gözəl bir sözü var. O, söyləyir: "Hər kəsin yerini və taleyini tarix özü müəyyən edir. Odur ki,həyatda böyük və kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi dərk edilmiş məsuliyyətin imkan verir". Onun fəaliyyətinin uğur formulu məhz bu dərk olunmuş məsuliyyətdən keçir. Qadının həm təbiət ,həm də cəmiyyət tərəfindən üzərinə qoyulmuş vəzifələri, həmcinin tarixin müəyyən etdiyi taleyin qisməti kimi dəyərləndirilən missiyaları vardır. Mehriban xanımın taleyində bu missiyaların hər birinin öz yeri var.

O, birinci xanım, birinci Vitse Prezident, xoşməramlı səfir, humanizm və mərhəmət ideyalarının carçısı və nəhayət dərk olunmuş məsuliyyəti ilə mükəmməl xanım

# Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycan qadınları üçün deyil, beynəlxalq qadın hərəkatı, dünya qadınları üçün də örnəkdir

*YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın yap.org.az-a müsahibəsi*

obrazını bütün parametrləri ilə öz şəxsiyyətində təcəssüm etdirən əsil azərbaycan Qadındır.

***- Sizin də vurğuladığınız kimi, Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas prinsipləri həm də xeyirxahlıq və humanizmdir. Buna nümunə olaraq onun sosial sahədə gördüyü işləri də qeyd etmək olar.***

Mehriban xanım mərhəmətin, humanizmin, yardımsevərliyin, müasir dövrümüzdə inkişafına təkan verən ən görkəmli şəxsiyyətdir. Bunu birmənalı şəkildə vurğulayıram. Biz sovet dönəminin verdiyi nailiyyətlərin, üstünlüklərini ədalət naminə qeyd etməli, həm də o dövrün bu kimi prosesləri "tormozlayan" məqamlarını da vurğulamalıyıq.

Bilirsiniz ki, sovet dönəmində insanlar arasında və həyat səviyyəsində süni bərabərləşdirmə məhdudiyyətlərlə və kvotalarla müəyyən olunurdu. Və burada hər kəsin fərdi imkanları və istedadından cıxış edərək cəmiyyətə töhfə verməsi tamamilə ideoloji şərtlərə tabe etdirilmişdi. Bu, yalnız icazəli şəkildə, müəyyən çərçivələrdə həyata keçirilə və müvafiq normalarla müəyyənləşdirilə bilərdi.Burada özfəaliyyətə,şəxsi təşəbbüslərə yer yox idi. Odur ki, xalqımız özünə xas olan bu keyfiyyətləri tarixin bütün mərhələlərində qoruyub saxlamış, onu reallaşdırmaq üçün uyğun şərtlərə və mexanizmlərə isə yalnız müstəqilliyimiz bərpa edildikdən sonra malik ola bilmişdir.

Bilirsiniz ki, müstəqilliyimizin bərpası illəri çox acı hadisələrlə müşayiət olundu. Torpaqlarımızın bir qismi işğal olundu, insanlarımız qaçqın - köçkün düşdü, iqtisadi və siyasi böhran nəticəsində ehtiyacı olan təbəqənin sayı dəfələrlə artdı. Ehtiyacı olan yüz minlərlə soydaşımız həm dövlətin, həm də ayrı-ayrı insanların yardımına möhtac bir vəziyyətə düşdülər. Odur ki bu prosesdə bütün imkanları səfərbər etmək, yardımı, qayğını daha effektli təşkil etmək üçün sistemli yanaşmaya, mükəmməl örnəklərə və nümunələrə ehtiyac vardı. Bu tarixi bir həqiqətdir ki,müasir Azərbaycanın ideoloji əsaslarının yaradılması,müstəqil dövlətin qurulması birmənalı şəkildə Ulu öndər Heydər Əliyevin həm sovet dönəmindəki fəaliyyəti ilə həm də müstəqilliyimizin bərpasına həsr olunmuş 10 illik Prezidentliyi dövründə həyata keçirdiyi siyasətə, onun iradəsi ilə qəbul olunmuş qanunlara ,və şəxsən imzaladığı fərman və sərəncamlara bağlıdır.

Bu ideyaların qorunması, daha geniş əhali kütlələrinə çatdırılması, təbliğ və inkişaf etdirilməsi missiyasını isə Heydər Əliyev Fondu yerinə yetirir. Fondun rəhbəri kimi Mehriban xanım həm Heydər Əliyevin müəyyən etdiyi ideoloji xəttin, eyni zamanda humanizmə xeyriyyəçiliyə və konkret insan talelərinə yönəlik layihələrin reallaşmasına bilavasitə rəhbərlik edərək rifah dövləti yaradılmasına böyük töhfələr verən fəaliyyətin müasir nümunəsini yaratmağa nail oldu.

***- Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri olmasından 16 il ötür. YUNESKO və İSESKO-nun xoşməramlı səfiri kimi göstərilən fəaliyyətlə bağlı nə deyə bilərsiniz?***

- Əvvəllər də dünyada YUNESKO və İSESKO-nun xoşməramlı səfirləri vardı. Amma nədənsə Azərbaycanda bu barədə heç danışılmırdı. Ümumiyyətlə, bu səfirlərin missiyası nədir, onlar hansı istiqamətdə fəaliyyət göstərirlər və ya göstərməlidirlər, bu fəaliyyətin nəticələri nədən ibarətdir, biz bu barədə o qədər də məlumatlı deyildik.

Mehriban xanımın fəaliyyəti daha geniş beynəlxalq arenaya çıxdıqdan sonra isə biz də bu sahəyə maraq göstərməyə başladıq.

İndi Azərbaycana yardımların göstərildiyi vaxtlar xeyli arxada qalıb. Ölkəmiz o dərəcədə inkişaf edib ki, biz həm də dünyada ehtiyacı olan insanlara yardım etməyə başladıq. Bununla yanaşı Fondun xətti ilə Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə geniş təbliği layihələri YUNESKO-nun, İSESKO-nun, BMT yanında fəaliyyət göstərən digər qurumların, Azərbaycanın xarici ölkələrdəki missiyaları, səfirlikləri və "Azərbaycan evləri"nin, diaspor təşkilatlarının xətti ilə həyata keçirilən tədbirlər daha çox tərəfdaş və daha çox izləyici topladı.

Belə bir fəaliyyət YUNESKO və İSESKO tərəfindən diqqətsiz qala bilməzdi. Mehriban xanımın rəhbərliyi ilə icra olunan layihələr bu təşkilatların Azərbaycandakı fəaliyyətlərinin miqyasını da genişləndirdi. Onlar Azərbaycana gəldikcə, burada layihələr reallaşdırıldıqca, onun nəticələrini gördükcə belə bir şəxsin beynəlxalq miqyasda fəaliyyətinin çox böyük səmərə və fayda verəcəyinə inandılar və təbii ki məmnuniyyətlə Mehriban xanım hər iki təşkilatın xoşməramlı səfiri seçildi. Sizə deməliyəm ki bu fəaliyyət Azərbaycana böyük fayda verməkdədir. Amma həmin təşkilatların fəaliyyəti üçün daha çox fayda verir söyləsəm, yanılmaram. Çünki bu fəaliyyət bir çərçivə yaratdı ki, xoşməramlı səfirlər necə ola bilərlər? O, həm də digər səfirləri, digər ölkələrin və xalqların bu təşkilatlar çərçivəsində fəaliyyət göstərən nümayəndələri üçün standartlar müəyyənləşdirdi. Onların vaxtaşırı Mehriban xanım haqqında söylədikləri fikirlərdə də bu, öz əksini tapır. Mehriban xanımın beynəlxalq aləmdə xoşməramlı fəaliyyətinin nəticələrinə verilən qiymət, ayrı-ayrı ölkələrin ən yüksək orden və medallarına, beynəlxalq təşkilatların ən nüfuzlu mükafatlarına layiq görülməsi onu göstərir ki, bu missiya təkcə Azərbaycana xidmət etmir, bu missiya bütün dünya xalqlarına, dünya mədəniyyətinə xidmət edir. Bu, həm də Azərbaycan xalqının Mehriban xanımın timsalında bəşər mədəniyyətinə verdiyi töhfədir ki, biz bununla qürur duyuruq, fəxr edirik. Ona görə ki, Mehriban xanımın varlığı xeyriyyəçiliyin, humanizmin, yardımsevərliyin daha yüksək zirvələrə qalxmasına şərait yaradır.

***- Bahar xanım müsahibə zamanı belə bir nəticəyə gəldik ki, Mehriban xanımın ölkənin bütün sahələrinin inkişafında rolu misilsizdir. Xüsusən ailə-qadın məsələlərində. Buradan belə bir sual yaranır ki, Mehriban xanım bu qədər işin öhdəsindən necə belə məharətlə gələ bilir?***

- Bu işin ona hansı çətinliklər hansı əmək, zəhmət bahasına başa gəldiyini bir Mehriban xanım bilir ,bir də Tanrı.Bir daha vurguladığım fikrin üzərinə qayıdıram ki, hər kəs həyatda əldə etdiklərini özünün dərk olunmuş məsuliyyətinə borcludur. Bu, mənə imkan verir söyləyim ki, Mehriban xanım hansı işlə məşğul olursa-olsun o, onu dərk olunmuş məsuliyyət olaraq qəbul edir və həyata keçirir. Məsuliyyətini dərk edən insan isə bütün sahələrdəki fəaliyyətini əlaqələndirməyi və hər birinin öhdəsindən gəlməyi bacarır. Əsas odur ki, biz bu fəaliyyət zamanı Mehriban xanımın ailəsi ilə cəmiyyət və dövlət həyatına göstərdiyi xidmətlərin arasındakı o balansı görürük. Deməli, bunun özü də çox gözəl bir örnəkdir. Əgər, biz hansısa ictimai fəaliyyətlə məşğul oluruqsa, ailəmizi unuda bilmərik. Ailə dəyərlərini, bizim ailədəki missiyamızı, övlad qarşısındakı borcumuzu, gələcək nəslə gözəl bir vətəndaş təqdim etməli olduğumuzu unutmamalıyıq. Bu heç də bir fəaliyyətin digərini istisna etməsi anlamına gələ bilməz.Deməli istək, səriştə və məsuliyyətli yanaşma olduğu təqdirdə ən ağır işlərin öhdəsindən gəlmək mümkündür. Ona görə də düşünürəm ki, Azərbaycan qadınları nə siyasi, nə də ki, ictimai həyatdakı çətinliklərdən çəkinməməli, bunun üzərinə çox böyük dəyanət və cəsarətlə getməlidirlər. Çünki bunun üçün bizim həm tarixi həm də müasir örnəklərimiz var.

Bütün bu illər ərzində yaradılmış mükəmməl qanunvericilik, müvafiq icra mexanizmləri, ən əsası cəmiyyətin düşüncəsindəki inqilabi dəyişiklik nəticəsində, tarixən Azərbaycana, İslam dünyasına və bir çox dünya ölkələrinə xas olan qadınların hüquqlarından daha çox onların vəzifələrinə görə yanaşmalara əsaslanan düşüncələr indi artıq arxa plana keçməkdədir.

Bu stereotiplər gözəl nümunələrin qarşısında geriyə çəkilməkdədir. İndi daha çox sayda kişilər düşünməyə başlayır ki, qadınlar cəmiyyət və dövlət həyatının dayaqlarından biridirlər və onların iştirakı cəmiyyət həyatına yalnız harmoniya gətirir, siyasəti daha da zənginləşdirir. Bərabər iştirakçılıq və təmsilçilik məsuliyyətin bərabər bölünməsinə şərait yaradır. Bundan isə həm ailələr, həm də cəmiyyətimiz qazanır. Ona görə düşünürəm ki, bu fəaliyyətin faydalarını biz hələ getdikcə hiss edəcəyik.

***- Biz müsahibədə Mehriban xanımın fəaliyyətinə toxunduq. Onu da qeyd edək ki, Mehriban xanım Əliyeva həm də Yeni Azərbaycan Partiyasının Sədr müavinidir. Bu haqda da fikirləriniz bizə maraqlı olardı.***

- Yeni Azərbaycan Partiyası Ulu öndər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan dövləti və dövlətçiliyinin qorunması, inkişafı və bugünkü səviyyəyə çatmasında özünəməxsus rolu və yeri olan mükəmməl və möhtəşəm bir siyasi təşkilatdır. Təsadüfi deyil ki, Ulu öndərimiz YAP-ın dövlətimizin bugünkü və gələcək həyatındakı roluna dair çox dərin inamla danışmış onun Azərbaycan dövlətini irəli aparmaq üçün geniş imkanlara malik olduğunu vurğulamış, üzvlərinə böyük ümid bəslədiyini qeyd etmişdir.

Yaşadığımız həyat da bunu göstərməkdədir. Birmənalı şəkildə partiyanın sıralarında olan insanlar öz imkan və bacarıqlarını bütün həyatını fədakarcasına bu dövlətin qurulmasına həsr edən Heydər Əliyevin və ölkə Prezidenti cənab İlham Əliyevin siyasətinin həyata keçirilməsinə sərf etməkdədirlər. Onlar Azərbaycanın perspektivli gəncləri, fədakar qadınları, bu dövlətin inkişafını həyatının mənası hesab edənlərdir. Odur ki, YAP-ın ətrafında Azərbaycan xalqının ən müxtəlif təbəqələrinin çox saylı nümayəndələri cəmləşərək və Heydər Əliyev ideyalarının reallaşması işinə ciddi töhfələr verməkdədirlər. Uzun illərdir bu təşkilatın iqtidar partiyası statusunu saxlaması, ölkə Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi regionun və indi artıq dünyanın güclü partiyaları sırasına daxil olması ilə bağlıdır. Təsadüfi deyildir ki, azərbaycan qadınları siyasi fəaliyyətlə məşğul olmaq istəyərkən də ilk olaraq YAP-a üz tutmuş və onun sıralarında olmağa üstünlük vermişlər. Bu prosesin daha çox qadınları əhatə etməsinə imkan verən faktlardan biri də bu gün Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın partiyanın İdarə Heyətinin üzvü və Sədr müavini olması ilə də şərtlənir. Biz onun partiya sıralarındakı fəaliyyətini yüksək dəyərləndirir və xidmətlərini xüsusi vurğulayırıq.

Onun şəxsində ictimai-siyasi, humanitar və beynəlxalq fəaliyyəti əlaqələndirməyin nümunəsini görən gənc xanımlar bundan cəsarətlənir, öz gələcək həyatlarını, siyasi talelərini bu partiyaya bağlamaq kimi bir qərar verirlər.

Mehriban xanımın partiya həyatına verdiyi töhfələrdən biri də gənclərin bu prosesə daha geniş cəlb olunmasına imkan yaratmasıdır.Belə ki,o, cəmiyyətin daha geniş təbəqələrini öz ətrafına toplaya biləcək kütləvi tədbirlərin təşkilinə yönəlmiş ideyaları ilə siyasi proseslərə ictimai və könüllü fəaliyyəti vasitəsilə qatılmağa gözəl şərait yaradır.

Bəzən gündəlik həyatımızda həddən artıq siyasiləşmiş yanaşmaları,hətta ən adi məsələlərə belə siyasi konyuktura ilə qiymət verilməsi ilə rastlaşırıq. Bu isə gəncliyi çəkindirir, qorxudur. Özünün o çərçivələrə uyğun gəlmədiyini, bu çətinliklərdən keçmək imkanında olmadığını düşünməyə vadar edir. Amma Mehriban xanımın bu istiqamətdə yeni çərçivələr müəyyən etməsi ilə daha çox sayda gəncin, xüsusilə gənc qızların özləri də hiss etmədən siyasi proseslərə qatılmasına şərait yaradır. Onlar YAP könüllüsü olaraq məhz Mehriban xanımın təşəbbüsü ilə həyata keçirilən layihələrə qatılmaqla qazandıqları təcrübədən çıxış edərək partiya sıralarına qatılmağa da özlərini hazır bilirlər.

Bir sözlə bu günkü qaynar həyatın bütün sferalarında öz təşəbbüsü ilə müəyyən etdiyi və tarixi taleyinin onun üzərinə qoyduğu çətin və şərəfli missiyasını ləyaqətlə daşıyan Bizim Mehriban Xanımın ictimai,siyasi və humanitar fəaliyyəti hər birimiz üçün örnəkdir.

# “Prezidentin məmurlara verdiyi tövsiyələrdən hər bir vəzifəli şəxs nəticə çıxarmalıdır”

***“Cənab İlham Əliyev ötən 17 il ərzində verdiyi bütün vədləri yerinə yetirməklə yanaşı, atdığı addımlarında hər bir azərbaycanlının Prezidenti olduğunu isbatladı. Məhz bu gün də Prezident İlham Əliyev fəaliyyəti ilə xalqa xidmətin nümunəsini təqdim edir”. Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.***



S.Vəliyeva bildirib ki, Prezident İlham Əliyev əməlləri ilə dövlətçiliyin, müstəqilliyin möhkəmləndirilməsi və ölkənin inkişafı üçün siyasi-mənəvi keyfiyyətləri də məmurlara aşılayır: “Bir dövlət rəhbərinin ad gününü qaçqın və məcburi köçkün vətəndaşları ilə birgə qeyd etməsi, bayram və matəm günlərində də xalqla bərabər olması onun xalqına olan münasibətinin səmimiliyindən irəli gəlir. Bu baxımdan da Prezident İlham Əliyev atdığı addımlar və gördüyü işlərlə dövlətçiliyin, müstəqilliyin möhkəmləndirilməsi və ölkənin inkişafı üçün siyasi-mənəvi keyfiyyətləri də məmurlara aşılayır”.

Deputat qeyd edib ki, dövlət başçısı İlham Əliyevin ötən gün Faiq Qürbətovu Biləsuvar Rayon İcra Hakimiyyətinin, Elmir Bağırovu isə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edərkən məmurlara verdiyi tövsiyələr və etdiyi xəbərdarlıqlardan hər bir vəzifəli şəxs nəticə çıxarmalıdır: “Prezident İlham Əliyev özünü xalqın birinci xidmətçisi adlandırmaqla məmurlara bir daha xəbərdarlıq edir ki, onlar yüksək etimadı doğrultmalı, xalqla bir yerdə olmalı, onların qayğıları ilə yaşamalı, kobudluğa, yekəxanalığa yol verilməməlidir. Düşünün ki, Azərbaycanın inkişafı və ictimai-siyasi vəziyyətin müsbət istiqamətdə inkişafı bütün dünyada gedən böhranlardan asılı olmayaraq, bizim böyük sərvətimizdir. Bu sərvətin qorunub saxlanılması hər bir azərbaycanlının mənəvi, məmurların isə həm də vəzifə borcudur. Çünki, məmurlar dövlətin həyata keçirdiyi siyasətin yerlərdəki icraçılarıdır. Bu mənada, vəzifəli şəxslər xalqın qayğıları ilə maraqlanmalı, onların qarşılaşdıqları problemlərin həll edilməsinə maksimum dərəcədə köməklik göstərməlidir. Hər bir ölkənin inkişaf səviyyəsinin əsas göstəricilərindən birini də vətəndaş-məmur münasibətlərinin və xalqa xidmətin səviyyəsi təşkil edir. Artıq Prezident İlham Əliyev bu münasibətlərdə nümunə təqdim edir. Məmurlar da dövlət başçısından nümunə götürməli və göstərilən etimadı doğrultmalıdır”.

# Eldəniz Səlimov: “Kimliyindən asılı olmayaraq, hər kəs qanun qarşısında bərabərdir”

***“Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və təlimatları var. Vəzifəsindən asılı olmayaraq, hər bir vətəndaşın onlara riayət etməsi tələb olunur. Xüsusilə xalq qarşısında məsuliyyət daşıyan şəxslər. Heç kimin dövlətin qanunlarını pozmağa haqqı yoxdur”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Eldəniz Səlimov deyib.***

Millət vəkilinin sözlərinə görə, qanunverici orqanın təmsilçiləri olaraq deputatlar 6 aya yaxındır ki, seçicilərini karantin rejiminin tələblərinə riayət etməyə çağırırlar: “Sadə vətəndaşı karantin şərtlərini qəbul etməyə, hərəkət məhdudiyyətlərinə əməl etməyə, evdə oturmağa səsləyirik, digər tərəfdən bu qadağaları pozma hallarının şahidi oluruq. Bunu necə qiymətləndirmək olar? Cənab Prezident İlham Əliyev hər çıxışında və görüşlərində ehtiyatlı olmağa, qadağaları nəzərə almağa, yaranmış vəziyyətin tələblərini ciddiyə almağa çağırır və bildirir ki, vəzifə daşıyıcıları sadə insanlara nümunə olmalıdır. İndi isə üzücü mənzərənin şahidi oluruq, vətəndaşları nizam-intizama səsləyən vəzifəli şəxslər Prezidentin çağırışlarına zidd olaraq özləri qaydaları pozur və buna haqq qazandırmağa çalışırlar”.

E.Səlimov qeyd edib ki, kimliyindən asılı olmayaraq, hər kəs qanun qarşısında bərabərdir. Karantin qaydalarını pozan yüksək rütbəli məmur, vəzifəlilər qanunu pozursa, hüquq mühafizə orqanları mütləq ölçü götürməlidirlər. Şəhər və rayonlarda karantin dövründə toy, məclislər təşkil etmək istəyən sadə insanlar cərimə oluna bilər, eynilə də bu sərt addım qanunu pozan məmurlara, özlərini qanundan yüksək tutanlara şamil olunmalıdır. Qanun qarşısında vəzifəsindən asılı olmayaraq hər bir vətəndaşın boynu qıldan incədir. Başa düşülməlidir ki, xalq və qanun ölkə rəhbərinin tərəfindədir. Dövlətimizin əmin-amanlığı, xalqımızın firavan yaşamı qarşısında Ulu Öndərimizin siyasi kursu və cənab Prezidentin qətiyyətli siyasi iradəsi durur.

Karantin qaydaları hər kəs üçündür! Hüquq-mühafizə orqanları karantin qaydasını pozur deyə bir vətəndaşı cərimələyib, digərini cərimələməyə bilməz! Bu gün isə karantin qaydalarını pozan bəzi tanınmış şəxslər cərimələnirsə, hətta inzibati qaydada həbs edilirsə, bu hər kəs üçün ciddi dərs olmalıdır! Toy qadağası davam edir və bu, hər kəs üçün belədir! Baş verənlər, dövlətimiz, hüquq-mühafizə orqanları tərəfindən müvafiq tədbirlərin görüldüyünü və heç kəsə xüsusi imtiyaz verilmədiyini və verilməyəcəyini bir daha göstərir!

Deputat xatırladıb ki, sərt karantin rejiminin may ayında nisbətən yumşaldılması vətəndaşların bir qismində təhlükənin artıq sovuşduğu təəssüratı yaratmış və onlar karantin qaydalarını pozmuşlar: “Nəticədə sanitar-epidemioloji vəziyyət pisləşdi və hökumət əhalinin sağlamlığını qorumaq məqsədi ilə yenidən sərt karantin rejimini tətbiq etməyə məcbur oldu. Görülmüş tədbirlər nəticəsində virusa yoluxanların sayı azaldı, sağalanların sayı isə artdı. Bütövlükdə xəstələrin sayı kəskin şəkildə aşağı düşdü. Bütün bunları nəzərə alaraq, Nazirlər Kabineti yanında Operativ Qərargah yenidən müvafiq tövsiyələrə ciddi riayət edilməsi şərti ilə karantin rejiminin qismən yumşaldılması haqqında qərar qəbul etdi.

Çox böyük zəhmət nəticəsində əldə edilmiş müsbət vəziyyətin daha da yaxşılaşdırılmasının ilkin şərti, kütləvi tədbirlərin keçirilməməsi, məsafədən idarəetmənin təşkili, sanitar qaydalara əməl etməkdir. Xüsusilə də, insanların daha çox toplaşa biləcəyi beynəlxalq və yerli tədbirlərin, idman yarışlarının, dini mərasimlərin, toy və hüzür məclislərinin keçirilməsi qadağan edilmişdir.

Hər bir vətəndaşın, xüsusilədə deputatların, dövlət qulluqçularının vəzifəsi karantin rejiminə nəinki riaəyət etmək, həm də şəxsi nümunə olmaqdır. Təəssüf ki, son vaxtlar bir bir qrup insanlarda arxayınlıq hissi yaranmış və məsuliyyətsizlik göstərərək toy şənlikləri təşkil edilmişdir.

Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, heç kim qanundan üstün ola bilməz, hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Müvafiq hüququ-mühafizə orqanları bununla bağlı reydlər keçirir, qanunları pozanlara qarşı qanun çərçivəsində tədbirlər görür, izahat və maarifləndirmə işləri aparırlar. Amma bundan nəticə çıxarmayanlar, emosiyalara qapılaraq məsuliyyətsiz addımlar ataraq toy mərasimləri təşkil edənlər də var. Belə məclislərdə deputatların, yüksək vəzifəli şəxslərin iştirakı yol verilməzdir və bu cür hadisələr qətiyyən cavabsız qalmayacaq!”. yap.org.az



***Ceyhun Rasimoğlu***

## Eldar Həsənovun cinayət işi Baş Prokurorluğa verildi

Baş Prokurorluq sabiq səfir, hazırda həbsdə olan Eldar Həsənovun barəsində olan cinayət işinin Dövlət Təhlükəsizliyi Xidmətindən alınaraq Baş Prokurorluğa verilməsi barədə vəkil Adil İsmayılovun yaydığı məlumata münasibət bildirib. Baş Prokurorluğun Mətbuat xidməti faktı təsdiqləyib. Qurumdan bildiriblər ki, vəkil Adil İsmayılovun yaydığı məlumat doğrudur: “Hazırda Eldar Həsənov barəsində olan cinayət işi üzrə istintaq Baş Prokurorluğun İstintaq İdarəsində aparılır”.

Xatırladaq ki, DTX-nın yaydığı məlumata görə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən sui-istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran əməllərə yol vermələri ilə bağlı başlanılmış cinayət işi üzrə Xarici İşlər Nazirliyinin İşlər idarəsinin müdiri, Nazirliyin Tender Komissiyasının sədri Fərhad Molla-zadə, Konsulluq idarəsinin rəisi Faiq Bağırov və digərləri vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, rüşvət alma faktlarına görə cinayət məsuliyyətinə cəlb edilərək barələrində məhkəmənin qərarları əsasında həbs qətimkan tədbiri seçilib. Davam edən cinayət işi üzrə həyata keçirilən istintaq-əməliyyat tədbirləri zamanı Xarici İşlər Nazirliyinin fəaliyyət istiqamətləri üzrə ayrılan dövlət büdcə vəsaitlərinin mənimsənilməsi ilə bağlı yeni məlumatlar əldə edilib, toplanılmış materiallar əsasında müvafiq qərarla kompleks maliyyə-təsərrüfat fəaliyyəti üzrə yoxlama təyin edilib. Maliyyə yoxlamaları zamanı Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda, Bosniya və Hersoqovinadakı səfiri Həsənov Eldar Hümbət oğlu tərəfindən xeyli miqdarda büdcə vəsaitinin təyinatı üzrə istifadə edilməməsi və digər qanun pozuntularının törədilməsinə dair əsaslı şübhələr müəyyən edilib. Aparılan istintaq çərçivəsində Eldar Həsənov şübhəli şəxs qismində tutulub.



**İLHAM**

# Sənə elə bir toy tutaram ki...

Xalqımızın özünəməxsus milli adət-ənənəsi, dəyərləri var. Hansı ki, bu dəyərlər dünyanın nüfuzlu təşkilatları tərəfindən yüksək qiymətləndirilir və beynəlxalq aləmdə yayılması tövsiyə olunur. Xüsusilə də, bizim toy adətimiz daha maraqlı və rəngarəngdir. “Bəyin oğurlanması” kinofilmində yaxşı deyilir: “Şair də yaxşı deyib, xalqımın toy kimi gözəl adəti var, bu gözəl adətinə hörməti var”.

Düzdür son vaxtlar min illərdir ki, xalqımızın tarixində dərin izlər buraxmış toy bir qədər sosial şəbəkələrin ruhuna, Avropanın yaşam tərzinə uyğun formalaşdırılıb. Yəni, sərhədlər keçilib, izlər ört-basdir olunub. Bayağı, zövqləri alt-üst edən musiqilər, süfrəyə düzülən onlarla təamlar, vur- çatlasın, çal oynasın rəqsləri toy kimi gözəl adətimizə arzuolunmaz çalarlar əlavə edib. Hələ toylara dəvət olunan bahalı müğənnilərə ödənilən xərcləri demirəm. Cümleyi-aləmdə mütrüblər kimi ad qazanıb, toy toğlusu kimi meydan sulayan müğənnilər saatı 10 min manatı az bilib, 20-25 min manata iddia edirlər. “Ayağını yorğanına görə, uzat” məsəlini qulaqardına vuran kasıb, imkansız insanlar sadaladığım zənginliyin içinə kor-korana daxil olmaqla bir növ özlərini yanan ocağın üstünə atmış olurlar.

Ailələr var ki, toyların onlara tutduğu toyun ağrı-acısını uzun illər çəkməli olurlar. Bu baxımdan hərdən fikirləşirəm, nə yaxşı ki, qədim dövrlərdə olduğu kimi, indiki dövrdə də 7 gün 7 gecə və ya 3 gün 3 gecə toy çalınıb, şənlik təşkil edilmir. Onda vay olardı, toy sahiblərinin halına. Kütləvi şəkildə ailələr evlərindən və şirin canlarından olardılar. Azmı olub, 5-6 saatlıq toy şənliyinin sonunda, pulu ödəmək imkanı olmadığı üçün şadlıq evinin sahibi, bəyi və ya gəlinin qayınatasını girov saxlamasın. Dəfələrlə, övladına toy etmək üçün Bankdan götürdüyü krediti ödəyə bilmədikləri üçün ailələr isti ocaqlarından olublar, yaşadıqları evləri banklar məhkəmə qaydasında əllərində alıb. Bir sözlə toylar toy edənə və toya gedənə toy tutur. Bəzən bu yanğını unutmağa çalışırıq. Ona görə ki, toy adətimizdir. Məsəl var deyərlər, “ev alana və toy edənə borca düşməkdə, xeyirdəndir”. Amma onu da unuduruq ki, xoşbəxliyin açarı, bahalı qızılda, cehizlərdə, nə də ki, dəbdəbəli toy mərasimlərində deyil. Cütlük arasında səmimiyyət, mehribanlıq, qarşılıqlı sevgi və məhəbbət sağlam və xoşbəxt ailənin yol yoldaşıdır.

Son vaxtlar bizə sözün əsl mənasında toy tutan toylarımız daha ağır ictimai narahatçılıqlar gətirməkdədir. Ölkəmizdə pandemiya səbəbindən bir sıra həyati məhdudiyyətlərin tətbiqi, toy etmək arzusunda olan ailələri çıxılmaz duruma salıb. Amma altdan-altdan toy etməyə cəhd edənlər tapılır. Onlar pullu-paralı, vəzifə sahibi olmalarından istifadə edərək, Nazirlər Kabineti yanında operativ qərargahın toyların keçirilməsinə qoyduğu qadağalara əhəmiyyət verməyərək, övladlarına şənlik təşkil edirlər. Amma gizlincə toy şənliyi təşkil edənləri ifşa edib, cəzalandırmaq uzun çəkməyir. Elə bu günlər Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin nəvəsinə gizlincə toy təşkil etməsi, qısa müddət sonra ictimaiyyətə aşkarlandı. Məhz bu zaman dövlətin nəyə qadir olduğu bəlli oldu. Dövlətin gücü və hakimiyyətin mövqeyi isə, qadağalara əhəmiyyət verməyib, toy şənliyi quranların və toyda iştirak edənlərin cəzalandırılması ilə nəticələrindi. Bununla da bir daha nümayiş etdirildi ki, heç kim qanundan üstün ola bilməz. Bu fakt həm də onu göstərdi ki, toydan ziyanla çıxanlar ancaq kasıb, imkansız insanlar deyil, varlı-karlı, vəzifə mənsubları da toydan zərərlə çıxırlar. Həm də, elə bir zərərlə ki, ömürlərinin sonuna qədər bu zərərin ağrısını, acısını yaşamalı olacaqlar.

Nəisə, Allah bu koronovirus bəlasını bizdən uzaq etsin, toylar bərpa olunsun. Cütlükər və onların valideyinləri, qohumlar bahalı qızıllarla, kreditlə alınan cehizlərlə dəbdəbəli toy mərasimlərinə axın etsinlər. Mütrüblərdə səbəbkarları tərif etmək üçün ortaya çıxıb, bayağı, zövqsüz mahnıları ilə meydan sulasınlar. Təbii ki, toy şənliyinin sonu necə olacağını düşünmədən.... Amma el məsəlini də unutmayaq: “Sənə elə toy tutaram ki, dəymişin durunca, kalın tökülər”.

# "Heç kim qanundan üstün ola bilməz"

***Aylardır qlobal pandemiya ilə mübarizədə aciz durumda qalan dünya dövlətləri böhran şəraitindən qurtula bilmir. Koronavirusun cəmiyyətlər üzərindəki dağıdıcı təsiri və iqtisadiyyatın, ticarətin ciddi şəkildə tənəzzülü aydın şəkildə görünməkdədir. Bütün bunlar mövcud problemi getdikcə daha da dərinləşdirir. Bəşəriyyətin sınağa çəkildiyi belə bir məqamda xəbər hər şeydən qiymətli olur. Hər bir kəs məlumatları izləyir və hansı dövlətin daha düzgün qərar verdiyini, daha səlis addım atdığını özlüyündə aydınlaşdırmağa cəhd edir.***

Bu baxımdan Prezident İlham Əliyevin qətiyyətli və operativ olması, kreativ lider kimi ən mürəkkəb hadisələri yüksək peşəkarlıqla idarə etməsi, qarşısına çıxan maneələri sürətlə keçməsi, düzgün qərarlar verməsi və bütün ölkənin aqibəti ilə yanaşı, hər bir vətəndaşın da qayğılarını eyni həssaslıqla düşünməsi Onun nüfuzunu dünya miqyasında artırır. Dövlət başçısının mübarizliyi və müdrik lider keyfiyyətləri yüz minlərlə insanın rəğbətinə səbəb olur.

## Dövlət öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutur

Xüsusilə son həftələr ölkədə karantin müddətinin uzadılmasına ehtiyacın olması da, məhz dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmasının reallığının təsdiq edən amildir. Pandemiya başlayandan indiyə qədər məhz düşünülmüş siyasət nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Elə karantin müddətinin uzadılması da dövlətin öz vətəndaşlarına daha diqqətli olmasının reallığıdır. Ölkə rəhbəri çıxışlarında da dəfələrlə vurğulayıb ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür: "Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!"



Göründüyü kimi, diqqətdən qaçmamalıdır ki, Azərbaycan dünyanı vahiməyə salmış pandemiyaya qarşı savaşı demək olar ki, öz vəsaiti hesabına aparır. Azərbaycan yeni bir nümunə yaradır və artıq bütün dünya ölkəmizin nümunəsini öyrənməyə çalışır. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən tədbirlər, aparılan mübarizə Azərbaycanın bu sınaqdan da daha az itki ilə çıxacağına əminlik yaradır. Ölkə başçısı hər bir vətəndaşı koronavirusla mübarizədə birləşməyə səsləyir - "Biz birlikdə güclüyük". Ölkə Liderinin bu çağırışına hər kəs qoşulur. Pandemiyaya qarşı mübarizədə Azərbaycanın əldə etdiyi uğurun başlıca səbəbi də milli birliyin nəticəsidir. Azərbaycan tezliklə bu mübarizədən də qalib çıxacaq. Yetər ki, məsuliyyətli olaq və qaydalara əməl edək.

Yaranmış vəziyyətə həssaslıqla yanaşan dövlətimiz müsbət vəziyyətin daha da yaxşılaşdırılması üçün kütləvi tədbirlərin keçirilməməsi, məsafədən idarəetmənin təşkili, sanitar qaydalara əməl etməyi xüsusi tələb kimi qoymuş və müvafiq qanunvericilik aktları mövcud vəziyyətə uyğunlaşdırılmışdır. Xüsusilə də insanların daha çox toplaşa biləcəyi beynəlxalq və yerli tədbirlərin, idman yarışlarının, dini mərasimlərin, toy və hüzr məclislərinin keçirilməsi qadağan edilmişdir. Dövlətin tətbiq etdiyi ciddi karantin rejimi ilə yanaşı həm ölkə Prezidenti cənab İlham Əliyev həm də birinci vitse-prezident xanım Mehriban Əliyeva xalqımıza müraciət edərək qaydalara əməl etməyi, infeksiyadan qorunmaq üçün bütün mümkün vasitələrdən istifadə etməyi tövsiyyə etmişdirlər. Bu baxımdan, hər bir vətəndaşın, xüsusilədə deputatların, dövlət qulluqçularının vəzifəsi karantin rejiminə nəinki riayət etməli, həm də şəxsi nümunə olmalıdırlar.

## Karantin rejimi və yenə məmur özbaşınalığı...

Lakin təəssüf doğuran odur ki, son vaxtlar bəzi şəxslər, həmçinin, məmurlar bu qanunları pozaraq toy mərasimləri, müxtəlif ziyafətlər təşkil edərək qanunları pozurlar. Bu isə cəmiyyətin ciddi hiddətinə səbəb olub və qınağına məruz qalıb. Ancaq bilmək lazımdır ki, Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, heç kim qanundan üstün ola bilməz. Hamı qanun qarşısında bərabərdir, öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Və Azərbaycan Prezidenti ölkədə qanunun aliliyinin qarantıdır, hər kəsin qanun qarşısında məsuliyyəti və cavabdehliyi ali iradənin tələbidir. Heç bir vəzifəli şəxs öz statusundan istifadə edərək qanunları poza və qanunun tələblərinə hörmətsiz yanaşa bilməz.

Məhz bu baxımdan da, koronavirusla mübarizə ümummilli məsələdir, heç kim şəxsi mənafeyi naminə, tutduğu mövqeyə, vəzifəsinə görə insanların həyatını təhlükəyə ata və onların sağlamlığına zərər gətirə bilməz. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, heç kim qanundan üstün deyil: "Əgər kimsə fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları onlara kömək edəcəklər səhv edirlər. Azərbaycan hüquqi-demokratik dövlətdir və qanun qarşısında hamı bərabərdir".

Bəli, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil. Ona görə də hər birimiz atdığımız addımları daha dərindən ölçübbiçməli, dövlətimizin qanunlarına hörmət nümayiş etdirməliyik. Sosial statusu, tutduğu vəzifə, göstərdiyi xidmətlər heç kimə qanunun tələblərindən yan keçmək imtiyazı vermir. Eyni zamanda, onu da demək istərdim ki, Azərbaycanda heç kimin fəaliyyətinə, qeyri-qanuni addımlarına, fərdi statusuna görə qiymət verilmir və kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq hər kəs törətdiyi əməllərin cəzasının qanun çərçivəsində almalıdı və alacaq da!

Bu baxımdan, hər bir vətəndaşın, xüsusilə də məmurların vəzifəsi karantin rejiminə riayət etməlidirlər. Və həmin adamlar bir daha bilməlidirlər ki, heç kim qanundan üstün ola bilməz, hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Çünki qanun şahdır, şah qanun deyil. Heç bir şəxs öz mövqeyindən, statusundan istifadə edərək qanunları və qanunun tələblərini poza bilməz, bütün atılan addımlar insanların sağlamlığı və təhlükəsizliyi üçündür!

Beləliklə, hər bir şəxs mövcud reallığı, qanunun aliliyini, Azərbaycan Prezidentinin mövqeyini və ali iradəsini bilməli və başa düşməlidir ki, qanun pozuntusuna görə mütləq və mütləq şəkildə hər kəs əməlinə görə cavab verəcək, heç kim məsuliyyətdən yayına bilməyəcək. Çünki, Azərbaycan Respublikasında heç kim qanundan üstün ola bilməz!.

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri***

# "Biz tezliklə Qurgin Alberyanı Ermənistana qaytaran deyilik"

***"Biz tezliklə Qurgin Alberyanı Ermənistan tərəfinə qaytaran deyilik. Ona görə ki, o, baş leytenant, diversiya-kəşfiyyat qrupunun rəhbəri və komandiridir. İlkin mərhələdə bu kimi şəxslərlə müəyyən işlər aparılır. Daha sonrakı mərhələdə isə onun Ermənistana qayıdıb-qayıtması məsələsi müzakirə olunacaq". Bu sözləri SİA-ya açıqlamasında hərbi məsələlər üzrə ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov deyib.***

Ekspert bildirib ki, Ermənistan tərəfinin yaydığı məlumata görə, guya, Ermənistanın diversiya-kəşfiyyat komandiri əlverişsiz hava şəraitində azaraq itkin düşüb və guya axtarışları davam etdirilir: "Bu barədə Ermənistanın Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan açıqlama verib. Yəni, Ermənistan tərəfinin verdiyi məlumatda Qurgin Alberyan əlverişsiz hava şəraitinə görə yolunu itirdiyi qeyd edilib. Ermənistan ilk dəfə deyil ki, belə absurd açıqlamalar yayır. Təbii ki, Müdafiə Nazirliyinin müvafiq qurumları bu istiqamətdə müəyyən işlər aparır



və tezliklə məsələyə aydınlıq gətiriləcək. Ermənistan isə sözsüz ki, hər zaman olduğu kimi yalan məlumatlar yayır. Bu, əvvəllər də baş verirdi, indi də eynilə davam edtirilir".

Onun sözlərinə görə, daha əvvəl Naxçıvan istiqamətində bir nəfər erməni Azərbaycan hərbiçiləri tərəfindən əsir götürülmüşdü və o, özünü mülki şəxs kimi təqdim etmişdi, lakin, sonradan məlum oldu ki, bu belə deyil: "Ermənistan tərəfi məsuliyyətdən yaxa qurtarmaq üçün həmişə belə absurd fikirlər səsləndiriblər. Belə addımların heç bir mənası yoxdur. Lakin, düşünürəm ki, biz tezliklə Qurgin Alberyanı Ermənistan tərəfinə qaytaran deyilik. Ona görə ki, o, baş leytenant, diversiya-kəşfiyyat qrupunun rəhbəri və komandiridir. İlkin mərhələdə bu kimi şəxslərlə müəyyən işlər aparılır. Daha sonrakı mərhələdə isə onun Ermənistana qayıdıb-qayıtmaması məsələsi müzakirə olunacaq".

Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov əlavə edib ki, Azərbaycanda saxlanılan bəzi Ermənistan hərbiçiləri Ermənistana yox, xarici ölkələrə getmək arzusunda olduğundan beynəlxalq qurumlar onlar üçün üçüncü bir ölkə axtarışında olurlar.

Onun fikrincə, Qurgin Alberyanın cinayətləri sübut olunan zaman növbəti mərhələdə aparılacaq proseslər daha da dəqiqləşdiriləcək: "Hərbi Məhkəmə vasitəsilə hökm oxunacaq. Daha sonra onun hər hansı bir ölkələyə verilməsi və yaxud dəyişdirilməsi mümkün ola bilər. Hazırkı məqamda Müdafiə Nazirliyi bu adama beynəlxalq hüquq normaları çərçivəsində yanaşır. Düzdür, bir çox sosial şəbəkə istifadəçiləri Tovuz hadisələrindən dolayı və bir sıra hadisələri əsas tutaraq müxtəlif emosialara qapılaraq, müəyyən istiqamətlər səsləndirirlər. Lakin, mənə elə gəlir ki, Azərbaycan bu şəxsi ya Ermənistanın işğal etdiyi ərazilərdən hər hansı bir Azərbaycan vətəndaşı olan əsirlə dəyişəcək, ya da başqa yollarla məsələni həll edəcək".

***Nigar Məmmədova***

# Füzuli və Cəbrayılla bağlı virtual təbliğat aksiyasına başlanılıb

***Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və "Virtual Qarabağ" İnformasiya - Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyi 23 avqust Azərbaycan Respublikasının Füzuli və Cəbrayıl rayonlarının Ermənistan tərəfindən işğalının 27 - ci ildönümü ilə bağlı virtual təbliğat aksiyasına start verib.***



Nazirlikdən SİA-ya verilən məlumata görə, aksiyaya dəstək olmaq üçün Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Virtual Qarabağ" İnformasiya - Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyi tərəfindən hazırlanmış və birliyin rəsmiwww.virtualkarabakh.az portalında, www.youtube.com/virtualkarabakhtv Youtub kanalı və rəsmi "Facebook" səhfəsində "Virtual Qarabağ" İKT Mərkəzi / 'Virtual Karabakh' ICT Centre Füzuli, Cəbrayıl rayonları və onların işağılının acı nəticələri ilə bağlı paylaşılan məlumatlar, nümayiş etdirilən 3D qrafik təsvirli filmlər, infoqrafikalar və digər foto və video materiallarla tanış olub, eyni zamanda, aşağıdakı həştəqlərdən istifadə etməklə sosial şəbəkələrdə aktiv şəkildə paylaşa bilərsiniz.

#Cəbrayıl #Jabrayil #Djabrail #Cəbrayılsız27il #27yearswithoutJabrayil

#Füzuli #Fuzuli #Fizuli #Füzulisiz27il #27yearswithoutFuzuli #Azərbaycan #Qarabağ #Azerbaijan #Karabakh #Azerbaydjan #Karabax #Azerbaycan #Karabağ #KarabakhConflict #Knowarmenia #STOParmenia #stoparmenianaggression #NKpeace #StopArmenianOccupation #ArmenianTerrorists #JusticeForInternationalLaw #armenianvandalism #KarabakhNow #armenia #armeniə #armeniaNow #OSCE #OSCEMG #ARGİN #MYS #virtualkarabakh #AllforKarabakh #KarabakhisAzerbaijan

# İnsan azadlıqlarının təminatı müasir dünyanın başlıca prinsipidir

***Hər bir dövlətin inkişafı şərtləndirən başlıca amil həmin dövlətin hüquqi, demokratik təssisatlara, insan hüququq və azadlıqlarının müdafiqəsinə riayət etməsidir. Məhz bu halda ölkələr dünya birliyində tanınar və qəbul edilər. Razılaşaq ki, bu tələblərə əməl etmək heç də, bütün ölkələr üçün asan deyil. Elə dövlətlər var ki, müəyyən səbələrdən əhali ilə daha çox komunist idialogiyasının tələb və prinsiplərinə uyğun davranmağa üstünlük verirlər.***

Elə götürək, Ermənistanı. Bu bədbəxt və şər yuvası olan dövlətin baş bilənləri üzlərinə "demokrat" niqabını çəksələrdə, əməllərində ermənilərlə qədar formada davranırlar. Elementar tələblərə belə Ermənistanda riayət olunmur. İnsanların söz demək, haqqlarını tələb etmək hüquqları əllərindən alınır. Etiraz edənlər döyülür, həbsxanalara atılır və bəzəndə işkəncələrlə o dünyalıq edilir. Müstəqil ekspertlərin gəldiyi qənaətə görə, küçə "demokratı"Nikol Paşinyan Serji Sarkisyanı zibil qutusuna atıb, hakimiyyəti zəbt etdiyi iki ilə yaxın vaxt ərzində ümimilikdə 20 minə yaxın insan haqqını tələb etdiyinə həbs edilərək, uzun müddətə dəmir barmaqlıqlar arasına göndərilib. 10 nəfər erməni isə, hüquq- mühaifizə orqanlarının qurbanı olub. 26 min insan isə, ölkədə hökm sürən aclıq və səfalətə dözmədiyindən. Yaşamaq üçün xaricə üz tutublar. Dəlidən doğru xəbər olmasın. AXC-Müsavat hakimiyyəti dönəmində Əbülfəz Elçibəyin müşaviri olmuş və sonradan dövlət çevrilişinin müəlliflərindən olmuş Fərman Dəmirqol mətbuata verdiyi müsahibəsində iddia edir ki, Türkiyə-Ermənistan sərhədləri açılsa, Ermənistanda bir dənədə olsun erməni qalmayacaq, onlar Türkiyəyə axın edəcəklər. Ehtimallar düzdür, səhvdir demək çətin olsa da, təkzib edilməz reallıq ondan ibarətdir ki, ermənilərin böyük əksəriyyəti ölkəni tərk etmək üçün startdadırlar. Məqam düşsə, imkan yaransa, bir qarın çörək üçün uzaq-uzaq ölkələrə üz tutarlar. Ümumiyyətlə işğalçı ölkənin prespektivi qaranlıq görünür. Əlavə olaraq Azərbaycanın torpaqlarını hələ də işğalda saxlaması, bu başıbəlalı ölkənin durumunu daha da ağırlaşdırır.

## Ədalət mühakiməsində qanunçuluğun artırılması

Hərbi ekspertlərində qeyd etdiyi kimi, Azərbaycanın ciddi bir həmləsi kifayətdir ki, Ermənistanın hərbi qruplaşması darma-dağın edilsin. Bunu Azərbaycanın bir alayının bütövlükdə Ermənistanın bütün ordusuna qarşı həyata keçirdiyi və bu gün də Ermənistanı ağır durumda saxlayan 2016-cı aprel zəfəri göstərdi. Bəlkə də, Ermənistana hərbi-siyasi dəstək göstərən ölkələrin yardımı, vasitəçilikləri olmasa idi, indi Dağlıq Qarabağ işğaldan azad edilib, insanlar öz yurd-yuvalarına qovuşmuşdu. Hələlik, torpaqlarımızın işğaldan azad edilməsi təxirə salınsa da , bu halın uzun çəkməyəcəyi şübhəsizdir. Yəni, Dağlıq Qarabağın işğaldan azad ediləcəyi və Azərbaycanın bu qədim bölgələrinin azad nəfəs alacağı gün uzada deyil.

Yuxarıda qeyd etdiyim kimi Ermənistanda insanlar ağır və məşəqqətli həyat yaşayırlar. İnsan hüquq və azadlıqlarının müdafiəsindən belə dan söhbət gedə bilməz. Addımbaşı ermənilər zorakılığa məruz qalırlar. Məhz bu və digər amilləri nəzərə alaraq demək olar ki, Azərbaycan istənilən sahədə Ermənistandan bir neçə dəfə üstündür. Xüsusi ilə də, ölkəmizdə insan haqlarına, demokratik dəyərlərə önəm verilir. Bu da Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında da məhz insan hüquq və azadlıqlarının təmini məsələsinin da-



yan-masıdır. Bununla bağlı ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsində qanunçuluğun artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üçün genişmiqyaslı tədbirlər görülmüşdür. Hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Əlamətdar tarixlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan hüquqları aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir.

## Pulsuz vəkil və hüquqi nümayəndə

İstənilən şəraitdə və vaxtda hər bir ölkə vətəndaşı öz hüquqlarının müdafiəsi üçün vəkillə təmin olunur. Bu polisdə, prokurorluqda və məhkəmədə ola bilər. Əgər kiminsə, vəkil tutmaq imkanı yoxdursa, dövlət hesabına bu məslə öz həllini tapır. Məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi ötən illər ərzində ölkəmiz insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirib. Rəsmi məlumata istinadən demək olar ki, insan hüquqlarının müdafiəsi sahəsində ölkəmiz 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. Təbii ki, bu islahatlar və bu islahatların nəticəsi olaraq əldə olunan uğurlar bundan sonrada davam etdiriləcək. Çünki, demokratik hüquqi dövlət quruculuğu sahəsində aparılan ardıcıl islahatlar bunu özündə ehtiva edir.

Azərbaycan Respublikasının Konstitusiyasının III fəsli, bütövlükdə, yəni 48 maddə insan hüquq və azadlıqlarına həsr olunub. Əsas Qanunun 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına təminat verilir, bu hüquqları və azadlıqları qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qarşısında mühüm vəzifə kimi qoyulur. İnsan şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşması vasitəsilə xalqın hakimiyyət funksiyasının həyata keçirilməsində iştirakı, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və bu kimi digər məsələlər Konstitusiyanın mahiyyətini təşkil edir. Qəbul edilən qanunlar, qərarlar Konstitutiyamıza uyğunlaşdırılır. Bu da hər ölkə vətəndaşında dövlətinə və qanunlara inam və etibar etmək əminliyi yaradır. Məhz Konstutiyanın tələblərinin tam şəkildə nəzrə alınmasının nəticəsidir ki, ölkəmiz günü-gündən inkişaf edir, çiçəklənir və bunun fonunda əhalinin social-iqtisadi durumu yaxşılaşır. Dünyada hazırda hökm sürən və Azərbaycanda da müşaət olunan pandemiyaya baxamayaq, ölkə vətəndaşları əziyyət çəkmədilər, somaddi sıxıntılatla üzləşmədilər, ərzaq problemləri ilə qarşlaşmadılar. Halbu ki, dünyanın aparıcı dövlətləri, o cümlədən Franasa, İspaniya, İtaliya kimi ölkələr pandemiya ilə əlaqədar olaraq dərman və ərzaq çatışmazlığı ilə üzləşdilər.

İnsanlar buna görə küçələrə çıxıb hökümətə etirazlarını bildirdilər. Azərbaycanda isə koronavirus pandemiyası başlamazdan öncə Prezident İlham Əliyevin təşəbbüsü ilə kölgə iqtisadiyyatına qarşı ciddi tədbirlər görüldü, şəffaflıq təmin edildi və dövlət orqanlarının fəaliyyətində informasiya texnologiyalarının tətbiqi təmin olundu. Ölkə Prezidenti İlham Əliyevin vaxtında apardığı islahatlar və tədbirlər ilk növbədə əhalininn rifah halının yaxşılaşdırılmasına nail olmaq idi və buna ən yüksək səviyyədə nail olundu.

Bir sözlə, Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət və bu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin fəaliyyətinin əsas xəttini Azərbaycanın hər bir vətəndaşının azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və sosial rifahını yaxşılaşdırmaq imkanlarını yaratmaqdan ibarətdir. Təbii ki bu siyasət dəyilməzdir. Əksinə ölkəmizin hər bir vətəndaşı budan sonra daha yaxşı, firavan və təhlükəsiz yaşamaq imkaları qazanacaqlar.

***İ.ƏLİYEV***

# Anar Xəlilov: "Qadağa dini adətlərə qarşı deyil"



"Məlum olduğu kimi, Hicri təqviminə uyğun olaraq Miladi təqvimlə avqustun 21-dən Məhərrəm ayı başlayıb. Bu ayın başlaması ilə artıq min illərdi Hicrətin 61-ci ilində İraqın Kərbəla çölündə baş verən qanlı hadisənin qeyd olunması bir dini adət olaraq qeyd olunur. Əsasən İslamın şiə məzhəbinə inanan əhali arasında qeyd olunan bu dini mərasimlər Azərbaycanda da hər il keçirilir. Məhərrəm ayının 10-u imam Hüseynin qətlə yetirildiyi gün Aşura günü adlanır və xüsusi mərasimlər təşkil olunur. Bu il də əhalisinin böyük əksəriyyətinin şiə məzhəbinə aid olan Azərbaycanda bu mərasimlər dini adətə uyğun olaraq keçirilməli idi. Ümumiyyətlə, onu qeyd edim ki, qanuna zidd hərəkətlərə yol verilmədən bu mərasimlərin keçirilməsi Azərbaycanda qadağan deyil və müstəqilliyimizin ilk illərindən xalq bu dini adəti bərpa edərək hər il qeyd etmişdir. Lakin bu il məlum pandemiya böhranının yaratdığı çətinliklərdən biri də virusun əhali arasında geniş yayılmasının qarşısının alınması mıqsədilə kütləvi tədbirlərin keçirilməsinin müvəqqəti olaraq qadağan edilməsidir. Məhz bu səbəbdən bu il Aşura gününün qeyd olunması və digər bu dini adətlə bağlı tədbirlərin keçirilməsi də karantin qaydalarına uyğun olaraq qadağan edilməlidir". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.

İctimai Birliyin sədri vurğulayıb ki, qadağa dini adətlərə qarşı deyil, ilk növbədə karantin qaydalarından irəli gələn qanuna uyğun olaraq vətəndaşların sağlamlığının qorunması məqsədilədir: "İmam Hüseyn (ə), özünün də dəfələrlə dediyi kimi, islahatçı, insanları doğruya dəvət edən, pislikdən çəkindirən və nəhayət, bu yolda öz həyatını qurban verən bir şəxsiyyət idi. Məhz bunu nəzərə alaraq vətəndaşlarımızı qaydalara əməl etməyə dəvət edirəm. İnsanların kütləvi toplanması, dini ayinləri yerinə yetirməsində heç bir qəbahət yoxdu, lakin virusun hələ də mövcudluğu şəraitində bunun nəticəsində kütləvi yoluxma halı olarsa, bu artıq elə İmam Hüseyn (ə) ruhunu da incidər. Axı İmam Hüseyn (ə) da insanların xoşbəxtliyin və sağlamlığın arzulayırdı.

Məlumdur ki, bir çox İslam ölkələrində də bu qadağanlar tətbiq olunub və insanları bunu anlayışla qarşılamaqları xahiş edilib. Azərbaycan xalqı da təbii ki, karantin qaydalarının tələblərinə uyğun olaraq tətbiq edilən qadağanı anlayışla qarşılayacaq. Xüsusilə də məscidlər bağlı olsa da bəzi şəxslər evlərində bu mərasimləri təşkil etmək istəyəcəklər. Bu istəyinizdən əl çəkməyinizi xahiş edirəm. Aşura fəlsəfəsinin də bir tələbi insanların təhlükələrdən, müsibətlərdən qorunmasıdır. Virusa kütləvi yoluxma halı da elə müsibətdir. Əgər öz hərəkitinizlə digər insanlara ziyan vurursunuzsa, fərqi yoxdur pis və ya yaxşı niyyətdən, bunun özü elə İslam qaydaları ilə böyük günahdır. Bu gün dünyada İT texnologiyalarının inkişafı nəticəsində geniş imkanlar mövcuddur. Bu imkanlardan yararlanmaqla dini adətlərimizi yerinə yetirmək olar. Bu da bir sınaqdı mömin ürəyində. Allah sevgisi olan hər bir insan bu sınaqdan çıxmağı bacarmalıdır. Tanrı hər birimizi qorusun. Allahdan İmam Hüseyn (ə) və eləcə də bütün şəhidlərimizə rəhmət diləyir, növbəti Aşura mərasimini işğaldan azad olunmuş Şuşada Gövhər ağa məscidində həyata keçirməyi arzu edirəm. Əziz xalqım, qaydalara əməl edin, bu ilk növbədə sizin sağlamlığınız üçündür".

***İnam Hacıyev***

# Məşhur Məmmədov: "Prezidentin çıxışı hər kəs üçün mesajdır"



"Prezident İlham Əliyevin çıxışı cəmiyyətin bütün üzvləri - ziyalılar, dövlət qulluqçuları - hər kəs üçün mesajdır". Bunu "SƏS" qəzetinə açıqlamasında millət vəkili Məşhur Məmmədov bildirib. M.Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Faiq Qürbətovu Biləsuvar rayon icra hakimiyyətinin, Elmir Bağırovu isə Saatlı rayon icra hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbulu zamanı bir çox məqamlara toxunduğunu deyib: "Xüsusilə dövlət başçısının məmurlara tutduğu irad məqsədəuyğun idi. Prezident İlham Əliyev hər zaman söylədiyi "biz hamımız - məmurlar, millət vəkilləri xalqın xidmətçiləriyik" yanaşması ən əsas məsələ kimi vurğulanıb. Azərbaycan dövlətinə, dövlətçiliyinə, hər bir Azərbaycan vətəndaşına olan təhlükənin, təhdidin qarşısını almaq üçün hər bir məmur cavabdeh olmalıdır. Dövlət başçısı bütün məmurları işlərində hər şeyin qanun çərçivəsində həyata keçirmələrini bildirib. Lakin dövlət başçımızın dediyi kimi, bəzi məmurların özlərini ağa, xan kimi aparması, insanlara yuxarıdan aşağı baxması yolverilməzdir. Cənab Prezident hər zaman bunu deyir, məmur vətəndaşlarla münasibətini dəyişməlidir. Məmurun vəzifəsi Prezidentin təyin etdiyi şəxs olaraq əhaliyə xidmət etməkdir. Dövlət başçısı deyib ki, Prezident başda olmaqla, bütün dövlət məmurları xalqın xidmətçisidir".

"Təəssüf doğuran odur ki, bəzi məmurların bunu dərk etmədikləri üçün bir sıra problemlər yaradılır. Dövlət başçısı da çıxışı zamanı bildirdi ki, bəzi dövlət məmurları özlərini apara bilmir, qanunları, cəmiyyətimizdə formalaşmış ənənəvi davranış qaydalarını pozur, özünü xalqdan yuxarıda hiss edirlər, təkəbbürlə yanaşırlar. Bu gün ölkənin Prezidenti özünü bütün Azərbaycan xalqının xidmətçisi hesab edirsə, həm məmurlar, həm də biz millət vəkilləri də hər birimiz vətəndaşın, seçicinin xidmətçisi, qulluqçusu olmalıyıq", deyə millət vəkili vurğulayıb.

M.Məmmədov Prezident İlham Əliyevin görüş zamanı Azərbaycanda şəffaflığın təmin olunmasına da toxunaraq bildirib ki, hər şey qanun çərçivəsində olmalıdır və yerli icra orqanlarının vətəndaşlarla rəftarı tamamilə dəyişməlidir: "Mən dəfələrlə demişəm ki, Prezident başda olmaqla bütün dövlət məmurları xalqın xidmətçiləridir. Məhz buna görə biz bu vəzifədəyik. Buna görə xalq mənə etibar göstərib və mən bütün təyin etdiyim kadrlardan bunu tələb edirəm".

Millət vəkili bildirib ki, ölkə Prezidenti çox yaxşı bilir ki, dövlət qurumlarında işlər hansı şəkildə reallaşdırılır, həyata keçirilir: "Burada məqsəd onların nəticə götürməsidir. Cənab Prezident ictimaiyyət nümayəndələri ilə görüşdə hər zaman onların problemləri ilə yaxından maraqlanır, fikirlərinə böyük önəm verir. Bu baxımdan ölkə başçısı hər zaman qeyd edir ki, məmurlar xalqın xidmətçilərdir. Məmur qüsurlu hallara yol verməməyə çalışmalıdır. Düzdür, iş olan yerdə müəyyən nöqsanlar olur. Amma qüsurlar bilərək və bilməyərəkdən ola bilər. Ümumiyyətlə, Prezident İlham Əliyevin məmurlarla bağlı söylədiyi irad və tövsiyələr ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir və buna böyük dəyər verilir. Bir sözlə, bu gün hər bir kəs özündə məsuliyyət hiss etməli, dövlətin etibarını doğrultmaq üçün əməlində bunu göstərməlidir. Dövlətini, xalqını düşünən, ən əsası dövlət idarəçiliyində tutduğu vəzifənin məsuliyyətini dərk edən kəs öz cibinə yox, ona göstərilən etimadı doğrultmağa çalışmalıdır".

***RƏFİQƏ HÜSEYNOVA***



# Azərbaycan muğamı bəşəri musiqiyə çevrilib

***Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara Musiqisi Festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir. Bu tarix muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün ən əziz bayramdır.***

Azərbaycan muğamı dünya ölkələrində birmənalı olaraq qəbul edilir, dünyanın mədəni irs siyasında nadir əsər tək qorunur və təqdim olunur. 26 avqust tarixi bütün muğamsevərlərin, xüsusilə də, bu sənət növünü yaşadan və onun təbliğinə daim yaradıcılıq və həyat yolunu həsr edən şəxslərin bayramıdır. Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də, onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır. Bu sənət Azərbaycan ərazisində yaşayan talışlar, dağlı yəhudilər ləzgilər, gürcülər, avarlar kimi etnik qruplar arasında da populyardır.

Həm milli mədəniyyət üçün, həm də bütün bəşəriyyətin mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyəri, onun yüksək mənalılığı 2003-cü ildə YUNESKO kimi nüfuzlu beynəlxalq təsisat tərəfindən etiraf olunmuşdur. YUNESKO muğamı "bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri" elan etmişdir.

Muğam - Azərbaycanın ənənəvi musiqisinin ən iri janrının ümumi adıdır, muğam formalarının bütün növlərinə şamil olunur, hərçənd onlardan hər birinin öz ayrıca adı mövcuddur. Bu janrı təmsil edən başlıca musiqi formaları - dəstgah, muğam və zərbi-muğamdır.

Azərbaycan musiqisində mövcud olan bütün muğam formaları arasında öz miqyasına və bədii ideyasına görə ən böyüyü dəstgahdır. Professional muğam sənətinin tarixinə mənbələr əsasında diqqət yetirsək, görərik ki, 1922-ci ildə muğamın tədrisi Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına daxil edilmişdir. Tədris proqramının tərtibi sonda Azərbaycan dəstgahlarının strukturunda xeyli islahatlara və ənənəvi məhəlli məktəblərin nisbi unifikasiyasına gətirib çıxardı. Muğamın tarixinə diqqət etdikdə, görürük ki, Üzeyir Hacıbəylinin göstərişinə əsasən, o vaxtın ən nüfuzlu musiqiçilər qrupu dəstgahların ixtisar edilmiş tədris versiyalarını işləyib hazırlamışdır. 20-ci və 30-cu illərdə tədris versiyaları ilə yanaşı, böyük sənətkarların - o vaxtın ustadlarının genişləndirilmiş versiyaları da mövcudluğunu davam etdirirdi. Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında XIX yüzilin 20-ci illərindən XX yüzilin əvvəllərinə qədər Azərbaycan şəhərlərində yaranmış ədəbi və musiqi məclisləri böyük rol oynamışlar. Onlardan ən məşhuru Şuşada "Məclisi-Fəramuşan", "Məclisi-Üns", Musiqiçilər Cəmiyyəti, Şamaxıda "Beytüs-səfa" və Mahmud ağanın musiqi məclisi, Bakıda "Məcmə-üş-şüəra", Gəncədə "Divani-hikmət", Ordubadda "Əncümən-üş-şüəra", Lənkəranda "Fövcül-füsəha" idi. Bu məclislərdə şairlər, ədiblər, musiqiçilər, sadəcə, ziyalı şəxslər, klassik poeziyanın və musiqinin sərrafları və biliciləri toplaşır, muğamları diqqətlə dinləyir, musiqinin və şeirin incə ifası ətrafında müzakirələr aparırdılar. Məclislər özlüyündən XIX yüzildə və XX yüzilin əvvəlində Azərbaycan musiqiçilərinin professional baxımdan kamilləşmələrində güclü stimul rolunu oynamışdı.

XX yüzilin 20-ci illərindən başlayaraq - sovet dövründə Azərbaycanda musiqi təhsili, o cümlədən, muğamın tədrisi 3 mərhələli sistem üzərinə köçürüldü: məktəb - texnikum - konservatoriya. Beləliklə, muğam sənətinin tədrisi prosesi indi formal olaraq 14-15 il vaxt aparır. İfaçılar özləri hesab edirlər ki, professional yetkinlik musiqiçiyə 5-10 il praktik çıxışlardan tez olmayaraq çatmaq olar. Beləliklə, muğam ifaçısının ustad, yəni öz peşəsində əsil professional olmasından ötrü 20-25 il vaxt tələb olunur. Tələbin bu səviyyəsi özlüyündə muğamı şifahi ənənəli professional sənət səviyyəsinə qaldırır.

Azərbaycanda sovet rejimi qurulduqdan sonra, xüsusən də, 30-cu illərdən başlayaraq, musiqi mədəniyyəti tamamilə dövlətin nəzarəti altına keçir. Sovet dövlətinin yürütdüyü "dəmir pərdə" siyasəti uzun müddət Azərbaycan musiqisi üçün beynəlxalq musiqi məkanına çıxışı bağlamışdı. XX yüzilin əvvəllərində, Şərq incəsənəti Qərb auditoriyasında maraq doğurduğu vaxtlarda Azərbaycan musiqiçiləri məlum siyasi vəziyyətə görə, ona sərbəst çıxışa malik olmadıqları kimi sovet Şərqinin ənənəvi musiqiçiləri də belə bir çıxışa malik deyildilər. Müvafiq olaraq Qərbin bədii məkanında müsəlman Orta Şərqinin musiqi mədəniyyətlərindən daha çox yeri ərəb, İran və türk ənənəvi musiqisi tutmuşdur. Xarici mədəni məkanda Azərbaycan muğamının mövqeyinin itirilməsi ilə yanaşı, Azərbaycanın özünün daxilində də keçən yüzilin 20-30-cu illərin məlum şüarlarında ifadə olunmuş nihilist tendensiya ("doloy tar!", "doloy muğam") tədricən muğam sənətinin ictimai statusunu laxlatdı.

XX yüzilin 30-cu illərindən başlayaraq, 70-ci illərədək olan dövrdə Azərbaycan cəmiyyətində muğamata primitiv sənət kimi baxış tədricən möhkəmlənməyə başladısa da, hər halda cəmiyyətdə, onun müəyyən bir hissəsində muğamatın populyarlığını azaltmadı. Muğam sənətinə münasibət yalnız XX yüzilin 70-ci illərində, YUNESKO-nun himayəsi altında ənənəvi musiqinin ilk beynəlxalq simpoziumları və festivallarının keçirilməsindən və bu hadisələrin sovet cəmiyyətində geniş əks-səda doğurmasından sonra dəyişməyə başlayır. Bu tədbirlər ənənəvi musiqi sənətinə marağın oyanmasına və ona yüksək dərəcəli professional sənət olaraq baxışların formalaşmasına rəvac verdi.

XX yüzilin 90-cı illərindən başlayaraq Azərbaycan muğam sənəti dünyanın hər yerində dinləyicilərin, mütəxəssislərin və menecerlərin diqqətini get-gedə daha geniş şəkildə özünə cəlb etməyə başlayır. Azərbaycanın ənənəvi musiqiçiləri beynəlxalq festivallarda iştirak edir, dünyanın hər yerinə qastrollara çıxır, onların diskləri Qərbin ən iri səsyazma studiyalarında buraxılır.

Muğam sənəti XX yüzillikdə Azərbaycan bəstəkarlarının yaradıcılığına ilham verən qaynaq olmuş və olaraq qalır. 1908-ci ildən - Bakıda Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun Azərbaycanda professional musiqi teatrının başlanğıcı olan ilk operasının səhnəyə qoyulduğu tarixdən muğamlar Azərbaycan musiqisindən bir çox musiqi əsərlərinə və yeni janrlara həyat vermişdir. Sonuncular sırasında - muğam operası, simfonik və xor muğamları, sonata-muğam, caz-muğam göstərilə bilər. Azərbaycan bəstəkarlarının ayrı-ayrı əsərlərinin bu gün də böyüməkdə olan çox uzun bir siyahısı muğam ənənələrinə əsaslanır.

Müasir dövrümüzdə özünün yeni bir inkişaf dövrünü yaşayan Azərbaycan muğamı dövlət tərəfindən qorunur və təbliğ edilir. Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verilir. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etməliyik. "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunu nəfis şəkildə nəşr etmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır.

Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilmiş layihələr arasında Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması önəmli yer tutur. Regionlarda da Muğam Mərkəzlərinin yaradılmasına dəstək verən Heydər Əliyev Fondunun təşəbbüsü Muğam Mərkəzləri inşa olunmuşdur.

Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə müxtəlif müsabiqələr və beynəlxalq festivallar təşkil edilərək həyata keçirilir. İlk olaraq fondun birbaşa dəstəyi ilə keçirilən və Azərbaycan muğam sənətinin inkişafına və təbliğinə böyük töhfələr verən muğam müsabiqələrini və beynəlxalq festivalları qeyd etmək lazımdır. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam müsabiqəsi Azərbaycan tamaşaçıları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımız tərəfindən də razılıqla qarşılandı. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə fond 2007-ci ildən başlayaraq muğam müsabiqəsi keçirilir.

Bakıda Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə dünyada ilk dəfə olaraq "Muğam aləmi" Beynəlxalq Muğam Festivalının keçirilib. Festival çərçivəsində keçirilən Respublika Muğam Müsabiqəsi, Beynəlxalq Muğam Müsabiqəsi və Beynəlxalq Elmi Simpoziumda muğamsevərlər, elmi tədqiqatçılar və dünyanın bir çox ölkələrindən dəvət olunmuş xarici qonaqlar iştirak etmişlər. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan muğam sənətinə bu diqqət və qayğısı muğamın təbliği, tədrisi, peşəkar musiqi ifaçılığının, müasir dinləyici mədəniyyətinin formalaşdırılmasında əvəzsiz rol oynayır.

2008-ci ildə, həmçinin, Fondun Azərbaycan muğamına həsr olunmuş yeni nəşri - "Azərbaycanın muğam ensiklopediyası" (iki cilddə) Azərbaycan, rus və ingilis dillərində nəşr edilmişdir.

Bu gün Azərbaycan muğam sənətinin nüfuzlu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək bu sənəti nadir əsər tək tamaşaçılar çatdırırlar. Demək olar ki, bu gün Azərbaycan muğamı dünyanı fəth edib. Bu sənətin qocaman, yaşlı, gənc səntkarları hər zaman öyrənir, öz üzərlərində çalışır və Azərbaycan müğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Belə bir sənət növü ilə hər bir azərbaycanlı qürürlanmaqda haqlıdır.

Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü elan olunması bir daha Azərbaycan mədəni irsinə beynəlxalq səviyyədə verilən qiymətdir. Bu gün dövlətimizin mədəniyyətimizə, o cümlədən muğam sənətinə, onu yaşadanlara böyük diqqət və qayğısı onları yeni-yeni yaradıcılıq axtarışına həvəsləndirir. Muğamımız bu gün bütün dünyanı fəth etmək, dilindən, dinindən, irqindən, miliyyətindən asılı olmayaraq, hər kəsin qəlbini, ruhunu oxşamaq iqtidarındadır.

***Zümrüd BAYRAMOVA***

# “Virtual terroristlər”in...




***Doğru deyirlər ki, bu siyasət elə bir şeydir ki, həqiqətən də onun nə dalı, nə də ki, qabağı görünmür. Xüsusilə də, koronavirus bütün dünyanı ağuşuna aldığı bir zamanda...Bu da təəccüb doğurmur. Çünki onların siyasətlərini özləri deyil, məhz başqaları yürüdür! Belələrinə isə siyasətçi yox, siyasətbaz deyilir.***

Diqqət yetirsək onu da görərik ki, müxalifət siyasətbazları arasında hər cür fərdlərə rast gəlmək mümkündür. Boş-boş vədlər verən, uydurma, həqiqətə uyğun olmayan, boğazdan yuxarı çıxışlarla lazımsız divident qazanmağa çalışan, keçmişi olmayan, bu günü müəmmalı, sabahı isə görünməyənlərə bu müxalifətdə çox rast gəlmək olur. Ancaq nə fərqi var ki? Bütün bu kimi hallara baxmayaraq, həmin siyasətbazlar özlərini cəmiyyətə tam fərqli formada təqdim etməyə, yəni əslində olduqlarından fərqli görünməyə can atırlar. Bu tip siyasətbazların iddiaları isə reallıqla heç cür üst-üstə düşmür və belə davam edəcəksə, heç düşməyəcək də. Çünki onlar potensiallarını düzgün qiymətləndirmədən daim qədərindən artığına yiyələnməyə çalışırlar. Danışanda adam lap mat-məhəttəl qalır. Deyirsən ki, buna dağ versən, dağı ikicə dəqiqənin içində “yıxıb-qoyar böyrü üstdə”. Sosial şəbəkə “qəhrəmanları” kar qulaqları, kor gözləri ilə axtarışda duraraq gözləyirlər ki, Azərbaycanda nə isə bir uğursuz hal müşahidə olunsun, başlasınlar onun ucundan tutmağa. Neyləsinlər, Avropanı zibilxanalarında eşələnməkdən “it iyi” verdiklərini bilirlər. Ona görə də, “virusa aludə olmaq yox, mitinqə çıxmaq” kimi “nəhəng” bəyanatlar verməklə düşünürlər ki, bəlkə “vot-vot” koronanı da “hop edəcəklər”. Daha onlara deyən yoxdur ki, ay filankəs... sənin ətin nədir, budun nə?!

Ancaq bir tərəfə baxanda, belə səviyyəsiz, savadsız və satqınlardan bundan savayı nə gözləmək olar? Sən hara, koronavirusla bağlı “siyasət aparmaq” hara...Çünki onların əsas amalı xalqın bu virusa düçar olması deyil, məhz daha çox gəlir əldə etmək, Qərbli Con, Devid əmilərindən qrantdan-filandan qazanıb cibişdana ötürməkdir. Və belə bir zamanda satqın virusların “lideri” Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Vidadi İskəndərli, Sevinc Osmanqızı, Arif Məmmədov, Qurban Məmmədov, Oruduxan Teymurxan, Tural Sadıqlı, Həbib Müntəzir, Məhəmməd Mirzəli və bu kimi iblis xisləti ilə erməni lobbisinin, anti-Azərbaycan dairələrin xidmətçisi, milli dönüklər, “virtual terroristlər” bu məkrli və çirkin prosesin önündə gedərək antiazərbaycan şəbəkənin sifarişlərini yerinə yetirmək üçün ən əxlaqsız, mənəviyyatsız üsullara əl atırlar.

### “Belə qüvvə yoxdur və nə qədər ki, mən Prezidentəm, belə qüvvə olmayacaqdır”

Bəli, hələ də anlamırlar ki, Prezidentimizi xalq dəstəkləyir. Xalqın gücünün olduğu yerdə, heç bir xarici qüvvə nəsə etmək imkanına malik deyil: “Bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki, mən Prezidentəm, belə qüvvə olmayacaqdır!”.

Bəli, istər ölkə daxilindəki, istərsə də müxtəlif xarici ölkələrdə məskunlaşmış antimilli ünsürlər bilməlidirlər ki, bu gün xalq öz Prezidentinə inanır və Onun yanındadır.

Vətən əxlaqından, milli mənlik şüurundan, məntiq və zəka gücündən məhrum olan, xalqa və milli dövlətçiliyin qəsdinə duran bu “ruhunu şeytana satan” xəyanətkarlar isə gec-tez öz layiqli cəzalarını alacaqlar. Sonda hər zaman maraqlı olan bir məsələyə toxunmaq istərdim. Görəsən, Mark Zukerberq “Facebook”u yaratmasaydı, “virtual terroristlər” iylənmiş iblis niyyətlərini hara boşaldardılar?...

**RƏFİQƏ**



## Kim-kimi mədh edib?..

**RÖVŞƏN**
*rovsen.rasulov@mail.ru*

***Akademik Ramiz Mehdiyevin nəvəsinə toy etməsi məsələsinin ardınca bu məsələnin ictimai rəydə kütləvi rezonans doğuracağı gözlənilən idi və gözlənilən daha bir məsələ, məhz ittiham olunan tərəflərin özlərini təmizə çıxarmaq cəhdləri oldu. Yəni həmin toyda iştirak edən şəxslərin bu və ya digər şəkildə mətbuata açıqladığı fikirləri...***

Lakin indi həmin fikirlərin yenidən xatırlanmasına ehtiyac yoxdur, ehtiyac daha dərin təfsilatlara varmaqdan və bu xüsusda qeydlər etməkdən ibarətdir. Məsələn, rezonanslı toyun “akademik toplantı” kimi təqdim edilməsi, yaxud həmin “toplantıda” BDU-nun sabiq rektoru Abel Məhərrəmovun toy sahibinə xitabən mədhiyyələri. Əslində, sabiq rektorun toy sahibinin şəninə dedikləri heç mədhiyyə də deyildi, onun dedikləri uzun illər vəzifədə qalmasından, sözün əsl mənasında, vəzifəsindən sui-istifadə etməsindən doğan bir harınlıq nümunəsi idi. Halbuki, o uzun illər bu dövlətin müstəqilliyini qoruyub-saxlayan, xalqı qaranlıqdan-işığa çıxaran, Azərbaycanı dünya miqyasında dövlətlər sırasına çıxaran, bu yolda ömrünü şam kimi əridən DÜHAYA qarşı “ağ” oldu və danılmaz tarixi və siyasi zəhmətləri başqa birinin ayağına yazmağa cəhd göstərdi. Həmin Abel Məhərrəmov ki, BDU-nun rəhbəri olduğu zaman İspaniyada səfərdəykən, şərabın təsirinə düşməklə və “tələbələrini ayağa qaldıracağı” fikri ilə çörəyini yeyib, suyunu içdiyi ölkəsində “qiyam qaldıracağı” təhdidində bulunmuşdu... Necə deyərlər, dilin sümüyü yoxdur, ətdəndir və aradabir çaşar, sözün düzünü deyər!

Mədh olunan isə nədənsə (?!) həmin fikirlərlə razılaşdı və iradını belə bildirmədi! Niyə əcəba? Məgər Abel Məhərrəmov öz ifadələrində bu qədərmi haqlı idi?!

Fəqət, sözümün canı daha bir məsələdədir. Mədh olunan dərhal rəhbərlik etdiyi qurumun rəsmi saytında onun öz təbirincə deyərsək, “mədh” edənləri, əsasən də, jurnalistləri, media rəhbərlərini hədəfə aldı. Hədəfə alaraq şəxsi müstəvidə fikirlərini ictimailəşdirdi. Demə, bu gün müxtəlif media rəhbərləri onu “mədh” etmək üçün sıraya düzülüblərmiş (?!) Amma gəlin-görək, bu iddia nə qədər həqiqətəuyğundur?

Sirr deyil ki, Azərbaycanda dövlətçilik ənənəsi mövcuddur və bu ənənənin dayaq nöqtələrindən biri də mətbuatdır. Dövlət siyasətinin təbliğatı da məhz iqtidar və iqtidaryönlü qəzetlərdə, saytlarda aparılır. Burada çətin, ya da anlaşılmayacaq heç nə yoxdur əslində. Dövlətin, hakimiyyətin müəyyən strukturları var və həmin strukturların rəhbərləri daha ali rəhbərlikdən aldıqları tapşırıqlarını, tövsiyələrini növbəti strukturlara, eləcə də mediaya verirlər. Bu zaman sual yaranır ki: dövlət siyasətini dəstəkləmək, dövlət başçısının siyasi, iqtisadi, sosial, hərbi və s. sahələrdəki islahatlarını təbliğ etmək, ictimai rəyin diqqətinə çatdırmaq, dünya miqyasına çıxarmaq “mədhiyyədir”, yoxsa iş prinsipi və dövlətə bağlılıq? Əlbəttə ki, dövlətə, dövlətçiliyə bağlılıq və bu bağlılığı ehtiva edən iş prinsipi! Onda nəyə görə nəvəsinin toyunda mədh olunan tərəf ona mədhiyyə edənin sözlərini kəsərək, doğru danışmadığını, dürüst nəticə çıxarmadığını bildirməsi yerinə, iqtidar mediasının kapitanlarını hədəfə alıb?

Daha bir sual: əgər mədh olunan və mədh edən tərəflər bu qədər “incə” nüanslara vara bilirdilərsə, nəyə görə Tovuz döyüşlərində torpaqlarımızın bütövlüyünün müdafiəsi uğrunda şəhid olmuş Vətən övladlarının 40-cı çıxmamış ruhları barədə bir anlıq olsa da düşünmədilər? Nəyə görə, insanlarımız öz şəhidlərinin əziz xatirələrini andıqları bir zamanda belə bir səhvə yol verdilər? Etinasızlıqmı? Mümkündür! Dövlətçilik maraqlarının arxa planda qalmasımı? Mümkündür! Düşüncəsizlikmi? Mümkündür! Bu mənada olan hər bir ifadə mümkündür!

Təəssüf ki, mədh edənlər və mədh olunan məşhur və rezonanslı toy iştirakçıları hələ də özlərini təmizə çıxarmağa çalışırlar. Amma təmizə çıxırlarmı, ya da təmizə çıxacaqlarmı? Yəqin ki, bu suallarımızın da cavablarını yaxın günlərdə öyrənəcəyik...

P.S. Köşəmi bitirdiyim zaman informasiya əldə etdim ki, demə mədh edən də mədh olunan tərəfindən aldadıldığını bildirib və bu fikirləri ilə vəziyyətdən çıxmağa çalışıb. Amma bu bəhanə də heç nəyi dəyişmir zatən...

# Mayis Səfərli: “Müxalifət Qərbdə anti-Azərbaycan şəbəkəsinə xidmət edir”

***Müxalifət düşərgəsində, mövcud anormal mühitin özəlliklərindən biri də, müxalifət qüsurlu fəaliyyətlərinə görə, tutduqları vəzifədən uzaqlaşdırılan şəxslərə qucaq açır və onları öz sıralarına qəbul edirlər. Hətta müəyyən sahələrdə təxribatlar aparmaq üçün onlara sahələr ayırırlar.***



Misal olaraq Gültəkin Hacıbəylinin, Əli İnsanovun və digərlərinin müxaliflərlə əlaqələr qurmalarını göstərmək olar. “Yurddaş” Partiyasının sədri Mayis Səfərli “Səs” qəzetinə açıqlamasında bildirdi ki, özlərinin anormal siyasətləri səbəbindən uzun illərdir iqtidar tərəfindən görülən işlərə böhtan atmaqla, qara yaxmaqla, qara piar kampaniyası aparmaqla məşğul olan radikal müxalifət bununla da cəmiyyətdə özlərinə nifrət qazanıblar: “Bugünkü reallıq ondan ibarətdir ki, müxalifət düşərgəsini təmsil edən şəxslər ancaq öz maraqları üçün çalışırlar və Qərbdə fəaliyyət göstərən anti-Azərbaycan şəbəkəsinə xidmət edirlər. Bu baxımdan, onlar Azərbaycan xalqının maraqlarını ifadə edə bilmirlər. Azərbaycan xalqının maraqlarının ifadəsi olmadıqlarına görə də, ölkədə keçirilən bütün seçkiləri də uduza-uduza gəlirlər. Bu baxımdan, onlar artıq siyasi arenanı tərk etməklə üzləşiblər”.

M.Səfərli bildirdi ki, meydanda tək qaldıqlarını görən radikal müxalif qüvvələr hakimiyyətdən uzaqlaşdırılan, xüsusilə də korrupsiyada, rüşvətxorluqda, vəzifə cinayətlərində ittiham olunan, həbsə düşən və sonradan həbsdən çıxan şəxslərə qucaq açırlar: “Yəni müxalifət qüsurlu fəaliyyətlərinə görə, tutduqları vəzifədən uzaqlaşdırılan şəxslərə qucaq açır və onları öz sıralarına qəbul etmədilər. Suda boğulan saman çöpündən yapışdığı kimi, onlar da hər hansı belə bir adama böyük məmnuniyyətlə qucaq açırlar. Amma bütün bunlar əbəsdir. Belə qüvvələrin də Azərbaycanda heç bir sözünün çəkisi, hörməti yoxdur. Sadəcə olaraq, bir müddət gündəmdə qalmaq üçün bu üsullardan istifadə edirlər”.

**Gülyana**



## İstanbulda terror törətmək istəyən İŞİD üzvü ələ keçirilib

İstanbulun məşhur Taksim meydanında terror aktı törətməyi planlaşdıran İŞİD üzvü ələ keçirilib. AZƏRTAC xəbər verir ki, terrorçu İstanbul Polis İdarəsinin terrorizmlə mübarizə şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində saxlanılıb. Onun terror aktı törətmək məqsədilə Türkiyənin Qaziantep vilayətindən İstanbula gəldiyi müəyyənləşdirilib. Taksim meydanında terror aktının planlaşdırıldığı ərazidə müşahidələr aparan həmin şəxs qaldığı oteldə ələ keçirilib. Terrorçunun otağında axtarış aparılıb və çoxlu sayda silah-sursat aşkarlanıb.

## Müəllimin seyfindən qanunsuz silah-sursat çıxdı



Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən odlu silah-sursatın aşkar edilməsi istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 1 il öncə vəfat etmiş, rayonun Boyat kəndindəki məktəbdə hərbi hazırlıq müəllimi işləmiş R. Rüstəmovun hərbi kabinetindəki seyfindən müvafiq sənədləri olmayan silah-sursat aşkar edilib. Seyfə baxış zamanı oradan 1 ədəd tüfəng, 1 ədəd “F1” və 2 ədəd “RQD5” tipli əl qumbaraları, 523 ədəd 5.6 kalibrli, 140 ədəd 7.62 kalibrli və 1 ədəd 5.45 kalibrli ptaronlar aşkar edilərək götürülüb. Faktla bağlı Ağcabədi RPŞ-də araşdırmalar davam etdirilir.

# İşğal altında olan Yuxarı Qarabağ zonası digər ərazilərdə kənd təsərrüfatına dəymiş ziyan

***Fiziki və hüquqi şəxslər, dövlətə və təbiətə dəyən zərərlərin qiymətləndirilməsi olduqca mürəkkəb və beynəlxalq miqyasda müzakirə obyekti olan məsələlərdəndir. Müxtəlif fövqaladə hadisələr, təbii fəlakətlər yaranan itki və tələfatların qiymətləndirilməsi üzrə dünya ölkələrində müəyyən qədər təcrübə toplanılmışdır. Lakin hal-hazırki dövrə qədər bir ölkənin digər ölkının ərazisini zəbt etməsi nəticəsində baş vermiş zərərlarin dəyəyrinin müəyyən edilməsi üzrə konkret metodologiya və qiymətləndirmə standartı işlənilməmişdir. Bəzən Böyük Vətən Müharibəsi illərində alman silahlı qoşunlarının İsrailə vurduğu zərərlərin, eləcə də ötən əsrin 90-cı illərində İraqın Küveytə hərbi müdaxiləsi zamanı yaranmış itki və tələfatların qiymətləndirilməsi metodlarının əsas götürülməsi təklif olunur.***

Lakin qeyd etməliyik ki, Azərbaycan-Ermənistan hərbi münaqişəsi göstərilən münaqişələrin heç biri ilə analoq deyi. Bunu itki və tələfatların istər miqyası, istərsə də ərazilərin işğal altında saxlanılması müddəti barədə söyləmək olar. Hərbi təcavüz nəticəsində dəyən itki və tələfatların qiymətləndirilməsi bilavasitə onların beynəlxalq qanunvericiliyə uyğun olaraq gələcək dövrdə konpensasiya olunması məqsədinə xidmət edir. Ona görə də onların qiymətləndirilməsi məsələsinin qoyuluşu, məqsəd və vəzifələri, həmçinin, metod və standartları düzgün seçilməlidir. Ona görə ki, burada insan tələfatlarının və bioloji müxtəlifliyə dəyən zərərin qiymətləndirilməsi kimi mübahisəli prosedurların həlli məsəsləsi qarşıda durur.

Qeyd olunan qəbildən olan itki və tələfatların qiymətləndirilməsi üçün onların dəqiq təsnifatı aparılmalı, mümükün qədər yaxın analoqlar müəyyən edilməli, beynəlxalq ekspertlərin rəylərinə və qiymətləndirmə standartlarının tələblərinə riayət olunmalıdır. Belə ki, qeyri-obyektiv qiymətləndirməninnəticələri beynəlxalq təşkilatlar və ictimayyət tərəfindən qəbul edilmir. Bu da bütövlükdə işğal müddətində illər boyu artmaqda olan itki və tələfatlara görə konpensasiya tələb etmək hüququnu məhdudlaşdıra bilər. 4 Belə nəticəyə gəlmək olar ki, hərbi təcavüz nəticəsində yaranan itki və tələfatların qiymətləndirilməsi üçün konkret tövsiyyə, normativlər və standartlar işlənilməlidir. İlk dəfə bu mövzuda yerinə yetirilən tədqiqat işini bu istiqamətdə ilkin addımlardan biri kimi qiymətləndirmək olar.

İşğal altında olan Yuxarı Qarabağ zonası Azərbaycanın iri kənd təsərrüfatı regionu idi. Əlverişli dağarası və dağətəyi düzənlikləri və hamar səthi yayları olan və yaxşı rütubətlənən Kiçik Qafqazın işğal olunmuş hissəsi kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin inkişafına geniş imkanlar yaradır. Kənd təsərrüfatının tərkibində taxılçılıq, yem istehsalı, üzümçülük, tütünçülük, kartofçuluq, pambıqçılıq, ətlik-südlük heyvandarlıq və xüsusilə qoyunçuluq daha üstün yer tuturdu.

Yuxarı Qarabağın qədimdən inkişaf etdirilən üzümçülük sahəsinə 70-ci illərdən sonra daha böyük diqqət yetirildi. Üzümçülük və şərabçılığın inkişafı ilə bağlı olaraq yeni texnikası və şərab zavodları olan ixtisaslaşdırılmış iri sovxoz-zavodlar yaradıldı. Regionda yeni əmtəəlik məhsul kimi inkişaf etdirilən sahələrdən biri də tütünçülük idi.

Ermənistanın təcavüzü nəticəsində həmin ərazidə fəaliyyət göstərən bir çox kənd təsərrüfatı müəssisələri, o cümlədən, kolxozlar, sovxozlar, təsərrüfat birlikləri və aqrofirmalar öz fəaliyyətlərini dayandırdılar .

Beləliklə, işğal olunmuş ərazilərdə 1988-ci ildən qalan 311 kənd təsərrüfatı müəssisəsi, 145 yeni yaradılmış, müasir texnika ilə təchiz olunmuş üzümçülükşərabçılıq sovxozları və xüsusilə, məşhur Qarabağ cins-cıdır atları yetişdirən Ağdam atçılıq sovxozu, 135 kolxoz və 31 təsərrüfatlararası müəssisələr dağıdıldı.

Kənd təsərrüfatının maddi texniki bazasını təşkil edən və fermerlərin hazırkı qiymətə satın almaq imkanları olmayan 1365 avto-qoşqu nəqliyyatı və 3425 müxtəlif əkin və qoşqu traktorları, taxıl və pambıq yığan kombaynlar və s. çıxarıla bilmədiyindən işğal ərazilərində qaldı.

İşğal olunmuş rayonların kənd təsərrüfatı müəssisələri və onların texnikası

(1988-ci il məlumatı) İşğal olunmuş rayonlar

Sovxozlar Kolxozlar Təsərrüfatlar arası müəssisələr

DQMV 99 43 49 7 800 2254
Laçın 30 28 - 2 60 70
Kəlbəcər 37 4 30 3 28 32
Ağdam 34 1 10 6 257 392
Füzuli 44 25 15 4 94 265
Cəbrayıl 24 7 14 3 77 145
Qubadlı 25 10 12 3 - 109
Zəngilan 18 10 5 3 49 158
Cəmil 311 145 135 31 1365 3425

Azərbaycan Respublikasının 20 % torpaqları işğal olunmuşdur ki, bunun da 183 242 hektarı əkinə yararlı olmaqla 94 275 hektarısuvarılan, 46 993 hektarı çoxillik əkin sahələri, 17 736 hektarı biçənəklər, 240 519 hektarı örüş, 7120 64 hektarı dincə qoyulmuş və s. torpaqlar idi.Hal-hazırda ermənilərin istifadə etdikləri əkinlərdən başqa bütün əkin sahələri tamamilə məhv edilmişdir. Erməni işğalçılarının zəbt etdiyi rayonların ərazisində sünbülqıranlar və gəmiricilər həddən artıq çoxalmışdır. Əkilib-becərilməyən torpaqlarda yabanı bitkilər artdığından vəhşi heyvanlar, ilan, siçan, siçovul kimi gəmiricilər, ziyanverici həşəratlar həddən artıq çoxalmışdır və onlar ətraf ərazilərə, o cümlədən qonşu rayonların ərazilərinə yayılaraq təsərrüfatlaraböyük ziyan vururlar. Bütün bunların müqabilində isə işğal altında olan bu nəzarətsiz ərazilərdə bəşəriyyət üçün təhlükə mənbələrindən biri olan Metsamor AES-nın radioaktiv tullantıları basdırılır, həmçinin narkotik bitkilər yetişdirilir və onların məhsulları gizli yollara xarici ölkələrə ötürülür.

Azərbaycanın işğal edilən əraziləri Ermənistan tərəfindən xarici ölkə vətəndaşlarına icarəyə verilir. Təkcə Cəbrayıl rayonunun təxminən yarısı İran vətəndaşlarına icarəyə verilib. Rayonun 93 kvadrat kilometr İrana yaxın olan hissəsi isə on illiyə bu ölkənin sərhəd qüvvələrinə icarəyəverilmişdir.

Nəzərə almaq lazımdır ki, içməli suya olan tələbat ildən-ilə artır. Beynəlxalq statistikaya əsasən inkişaf etməkdə olan ölkələrdə hər üç nəfərdən biri içməli suyun çatışmazlığından əziyyət çəkir. Xəstəliklərin 80 %-i, ölüm hadisələrinin 13 %-i içməli sudan istifadə ilə bağlıdır.

Azərbaycan Respublikasının çay sularının ehtiyatlarının 70 faizi qonşu ölkələrin ərazisindən əsas transsərhəd çaylar olan Kür, Araz və onların qolları vasitəsilə daxil olan axının payına düşür. Bu çaylarınsuyundan kənd təsərrü-fatında, sənayedə, eləcə də əhalinin içməli su ilə təchiz olunmasında istifadə olunur.

Ayrı-ayrı mənbələrdən alınmış məlumatlara görə ermənilər bu gün də özləri istifadə etmədikləri su mənbələrini müxtəlif vasitələrlə qurudur və sıradan çıxarırlar.

Dövlətlərin hərbi təcavüzkarlıq siyasəti də ətraf mühitə böyük ziyan vurur. ABŞ-ın Vyetnamda apardığı müharibə nəticəsində ölkə ərazinin 12 %-i məhv edilmişdir. İraq müharibəsi həm insanlara, həm də ekoloji tarazlığa sağalmaz yaralar vurmuşdur. Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində respublika 65 ərazisinin 20 %-i işğal altında qalmaqla, təbiətə sağalmaz yaralar vurulmuş, 30 min nəfərdən çox insan ölmüşdür. Meşə və yaşıllıqların məhv edilməsi də ekoloji tarazlığı əhəmiyyətli şəkildə pozmuşdur.

İşğal olunmuş ərazilərdə yerləşən və oradan keçən su mənbələri (göllər, su anbarları, çaylar, kanallar və s.) həmin ərazilərlə bərabər ətraf ərazilərin də ekologiyasında mühüm rol oynayır.

Ermənistan ərazisində yerləşən Qacaran mis-molibden, Qafan mis filizsaf-laşdırma kombinatlarının kimyəvi çirkli suları və Qafan-Qacaran şəhərlərinin (o cümlədən kəndlərin, xəstəxanaların, kənd təsərrüfatı obyektlərinin) bioloji çirkli suları təmizlənmədən (zərərsizləşdirilmədən) birbaşa Azərbaycan ərazisində Zəngilan rayonunun Şərikan kəndinin qarşısında Oxçuçaya buraxılır ki, bu da çay hövzəsini "Ölü zonaya" çevirmişdir. Çayın Azərbaycan ərazisinə düşən yatağının 43 kilometri, sutoplayıcı sahəsinin isə 455 km2-i daim çirklənməyə məruz qalır. Nəticədə çay suyunda əzəldən formalaşmış mikroflora-fauna da məhv olmuş, öz- özünü təmizləmə prosesi dayanmışdır.

Ermənistanın insanlığa qarşı yönələn terror siyasəti Azərbaycan təbiətinə, bioloji müxtəlifliyə ciddi ziyan vurmuşdur. Ekologiyaya qənim kəsilmiş bədnam ermənilər və havadarları Qarabağ və ətraf rayonlarda ekoloji tarazlığın pozulmasına - mineral xammal ehtiyatlarımızın qanunsuz mənimsənilməsinə, meşə zolaqlarının vəhşicəsinə qırılmasına və yandırılmasına. Araz çayı və qollarının çirkləndirilməsinə, heyvanat aləminin xüsusi qəddarlıqla məhv edilməsinə səbəb olan işğalçılıq siyasətini dövlət siyasətinə çevirmişlər.

1990-cı illərin sonlarına qədər ermənilər işğal edilmiş ərazilərdə azərbaycanlı əhaliyə aid mülkiyyəti, evləri, digər maddi sərvətləri talan edib satmaqla dolanırdılar. 1990-cı illərin sonlarına doğru bu ehtiyatlar tükənəndə talançılığın digər istiqaməti - təbii sərvətlərin qəddarlıqla talanıb daşınması vüsət almağa başlamışdır.

***Vahid Ömərov f.ü.f.d.dos.***

> Azərbaycan Respublikasının çay sularının ehtiyatlarının 70 faizi qonşu ölkələrin ərazisindən əsas transsərhəd çaylar olan Kür, Araz və onların qolları vasitəsilə daxil olan axının payına düşür. Bu çaylarınsuyundan kənd təsərrü-fatında, sənayedə, eləcə də əhalinin içməli su ilə təchiz olunmasında istifadə olunur




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

## Son səhifə

26 avqust

## UEFA Superkuboku matçına azarkeşlər buraxılacaq



Futbol üzrə UEFA Superkubokunda "Sevilya" və "Bavariya" arasında keçiriləcək matçda stadiona azarkeşlər buraxılacaq. Bu barədə UEFA-nın saytı məlumat yayıb. UEFA İcraiyyə Komitəsinin qərarına əsasən, stadionun 30 faizini dolduracaq qədər azarkeş tribunalarda yer alacaq. Qeyd edək ki, koronavirus səbəbindən bir çox ölkədə matçlar azarkeşsiz keçirilir. Əlavə edək ki, UEFA Superkubokunun görüşü sentyabrın 24-də Macarıstanın paytaxtı Budapeştdəki "Puşkaş Arena"da keçiriləcək.

## "Barselona" Messinin qiymətini açıqladı: 700 milyon avro!

***"Barselona" futbolçusu Lionel Messinin qiymətini müəyyənləşdirib. Qol.az "Mundo Deportivo"ya istinadən xəbər verir ki, Kataloniya klubu argentinalı hücumçunu təzminat qiyməti olan 700 milyon avrodan aşağı qiymətə satmağı planlaşdırmır. Bildirilir ki, hər hansı klub bu məbləği ödəyəcəyi təqdirdə, La Liqa təmsilçisi Messi ilə yolları ayıra bilər.***



Klub 33 yaşlı futbolçunun komandanı hələ də əsas oyunçusu hesab etdiyi üçün ona yüksək qiymət qoyub. "Barselona"nın prezidenti Xosep Bartomeunun Messinin satılmayacağından əmin olduğu vurğulanıb. Kataloniya klubu rəhbərinin eyni zamanda reklam müqavilələrinə görə argentinalı oyunçunun satılmasına qarşıdır. Çünki o, klubdan ayrılacağı təqdirdə, reklam müqavilələri də azala bilər.

Qeyd edək ki, Messi 2019/2020 mövsümündə 44 matçda 31 qol vurub, 26 qolun ötürməsini verib. Xatırladaq ki, Çempionlar Liqasının 1/4 finalında "Bavariya"ya 2:8 hesablı məğlubiyyətdən sonra Messinin "Barselona"dan ayrılmaq istədiyi xəbərləri yayılıb.

## Koronavirus ağciyərlə yanaşı bu orqanı da zədələyir

Son zamanlarda koronavirusun ağciyərlərlə yanaşı böyrəklərə təsiri haqqında məlumatlar yayılıb. Virusa yoluxub xəstəxanaya yerləşdirilən və vəziyyəti ağır olan xəstələrin təxminən yarısının böyrəklərində müxtəlif dərəcəli zədələnmələr aşkarlanıb.




Cons Hopkins Universitetinin Nefrologiya mütəxəssislərinin fikrincə, COVID-19-a ağır yoluxan bir çox xəstədə yüksək təzyiq və şəkərli diabet daxil olmaqla xroniki xəstəliklər böyrək zədələnməsi hallarını artırır. Aparılan araşdırmalara görə, xəstəliyi ağır keçirən 100 xəstənin 25-də böyrək çatışmazlığı var.

## Azyaşlı oğlunu itirən məşhur model göz yaşlarına boğuldu...

Bir neçə ay əvvəl xərçəng xəstəsi olan oğlunu itirən model Ebru Şallı ilk dəfə kamera qarşısında duyğularını dilə gətirib. Türkiyə mətbuatı xəbər verir ki, jurnalistlərin suallarını cavablandıran Ebru Şallı göz yaşlarına hakim ola bilməyib. "Ayaqda durmaq məcburiyyətindəyəm, böyük oğlum var. Gözümün içinə baxır... Həyat yoldaşım var. Hər kəs bu müddətdə dəstək olmağa çalışır. Mənfi rəylərin yazılması həqiqətən çox üzücüdür. Bunu yaşamayan bilməz. Allah heç bir ana-atanın başına gətirməsin. Pis bir iş görmürəm ki, həyat yoldaşımın doğum gününü təbrik etmişdim, yanımızda uşaqlarımız da var. Heç kimə hesab verməк məcburiyyətində deyiləm. Dünyanın ən böyük acısını son nəfəsimə qədər yaşayacağam. Heç kim içimdəki fırtına və acını sakitləşdirə bilməz".



## "Atletiko" bu qapıçıya 120 milyon avro qiymət qoydu

"Atletiko" qapıçısı Yan Oblaka qiymət qoyub. İspaniyada nəşr olunan nüfuzlu "Marca" nəşri xəbər verir ki, Madrid təmsilçisi sloveniyalı qolkiper üçün 120 milyon avro ödəniləcəyi təqdirdə, onu sata bilər. Əks halda 27 yaşlı qapıçı "Atletiko"da qalacaq. Qeyd edək ki, Y.Oblakın Madrid təmsilçisi ilə müqaviləsi 2023-cü ilin yayında başa açtır. Onunla "Çelsi"nin yaxından maraqlandığı iddia olunur.




## Ayaqqabı almaq adı ilə evdən çıxan qadın oğlunu öldürüb, intihar etdi



Ərinə oğlumuz üçün ayaqqabı almağa gedirəm deyən qadın dəhşətli cinayət törədib. Milli.Az Mirror-a istinadla xəbər verir ki, o, 4 yaşlı övladını öldürdükdən sonra canına qəsd edib. Dəhşətli olay İtaliyanın Turin şəhərində yaşanıb.

43 yaşlı Viviana Parisi əri Daniele Mondelloya alış-veriş üçün evdən çıxdığını söyləsə də, o, avtomobili Messina-Palermo magistral yolu istiqamətində sürüb. Qadın övladını öldürdükdən sonra körpüdən özünü atıb. İlkin ehtimallara görə, qadın azyaşlı oğlunu boğaraq öldürüb. Viviana evdən çıxarkən mobil telefonunu özü ilə aparmayıb.

## Abşeronda avtomobil oğrusu tutulub

Abşeron rayonu ərazisində avtomobil oğrusu saxlanılıb. AZƏRTAC xəbər verir ki, Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat zamanı gecə saatlarında Rəhman Məmmədova məxsus "VAZ 2105" markalı 10-DH-094 dövlət qeydiyyat nişanlı avtomobili oğurlayan Lənkəran şəhər sakini, 30 yaşlı Mirhüseyn Ocaqov tutulub.

Araşdırma zamanı onun maşın ustası olduğu, Masazır kəndində avtomobillərin təmiri sexlərinin birində işlədiyi müəyyən edilib. Güman olunur ki, avtomobili də məhz hissələrə bölüb satmaq üçün oğurlayıb. Əvvəllər də bir neçə dəfə məhkumluq həyatı yaşayan Mirhüseyn Ocaqov tutduğu cinayət əməlindən peşman olduğunu bildirib. Faktla bağlı Abşeron Rayon Polis İdarəsində cinayət işi açılıb, araşdırma aparılır.



## ELAN

Rəhmanov Rəhman Tofiq oğlunun adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair JH-5381H (KOD 00101016) şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**